

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

BDU

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti    27 fevral 2026-cı il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR



**BDU rektorunun Vyanaya səfəri çərçivəsində səfirlə görüşü keçirilib** ➔Səh.2

**BDU-nun rektoru Beynəlxalq Kosmik Hava Təşəbbüsü proqramının Rəhbər Komitə iclasında məruzə ilə çıxış edib** ➔Səh.3

**Qırğız Milli Universitetinin rektoru BDU-da mühazirə deyib** ➔Səh.5

**Macarıstanın Azərbaycandakı səfiri və Pannoniya Universitetinin rektoru BDU-da** ➔Səh.6

**BDU və “Grand-Agro İnvitro” MMC arasında anlaşma memorandumu imzalanıb** ➔Səh.7

**Bakı Dövlət Universiteti ilə FAO arasında əməkdaşlıq perspektivləri müzakirə edilib** ➔Səh.7

**BDU-nun tələbələri təltif olunublar** ➔Səh.11

**BDU-nun Elmi Kitabxanasına Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən kitablar hədiyyə olunub** ➔Səh.14



**Ölkənin birinci bankı və birinci universiteti arasında memorandum imzalandı** ➔Səh.2



**BDU-nun rektoru UNCOPUOS-un Elm və Texnika üzrə Alt Komitəsinin 63-cü sessiyasında iştirak edib** ➔Səh.2



**BDU Elmi Şurasının növbəti iclası** ➔Səh.3



**BDU Elmi Kitabxanasının elektron bölməsinin bp-nin dəstəyi ilə yenidənqurulmadan sonra açılış mərasimi** ➔Səh.4

**BDU və “BP Eksploreyşn (Kaspian Si) Limited” arasında əməkdaşlıq müqaviləsi imzalanıb** ➔Səh.5




## BDU-da Xocalı faciəsinin 34-cü ildönümünə həsr olunmuş anım tədbiri

***Fevralın 25-də Bakı Dövlət Universitetində Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin və Xocalı faciəsi qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən BDU-nun rektoru Elçin Babayev Xocalı faciəsinin XX əsrin sonlarında insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu deyib. Bildirib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Xocalı şəhərində dinc əhaliyə qarşı misli görünməmiş qəddarlıq nümayiş etdirilib, yüzlərlə günahsız insan yalnız milli mənsubiyyətinə görə qətlə yetirilib: “Ermənistan hərbi birləşmələrinin 7 min əhalisi olan Xocalı şəhərində genosid aktı nəticəsində 613 nəfər öldürülüb, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil olub. 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca qətlə yetirilib. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirib. Facia baş verən gecə 1275 nəfər dinc sakin girov götürülüb, onların 150-sinin taleyi indi də məlum deyil. Bu faciəyə ilk dəfə hüquqi-siyasi qiymət Ümummilli Lider Heydər Əliyev tərəfindən verilib. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi “Xocalı soyqırımı günü haqqında” qərar qəbul edib, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq, beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırıb.

Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, onun beynəlxalq aləmdə yayılması, həmçinin bu faciəyə obyektiv qiymət verilməsi istiqamətində Heydər Əliyev Fondunun fəaliyyətindən söz açan rektor Elçin Babayev Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Xocalıya ədalət!” Beynəlxalq təbliğat və məlumatlandırma kampaniyasının bu soyqırımının təkcə xalqımıza qarşı deyil, bütövlükdə insanlığa, bəşəriyyətə qarşı yönələn ən ağır cinayətlərdən biri kimi tanıdılması baxımından mühüm işlər həyata keçirdiyini qeyd edib: “Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli və məqsədyönlü dövlət siyasəti nəticəsində xalqımız tarixinin yeni və şərəfli mərhələsinə qədəm qoyub. 44 günlük tarixi Zəfər nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa olunub, işğala son qoyulub, uzun illər ədalət gözləyən şəhidlərimizin, o cümlədən Xocalı qurbanlarının ruhu rahatlıq tapıb. Xocalının azad olunmasından sonra dövlətimizin əsas prioritetlərindən biri bu şəhərə qayıdışın təmin edilməsi və yenidən qurulmasıdır. Aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Xocalının müasir, təhlükəsiz və davamlı inkişaf edən yaşayış məkanına çevrilməsinə xidmət edir. Bu proses Azərbaycan dövlətinin gücünün, iradəsinin və gələcəyə yönəlmiş strateji baxışının bariz nümunəsidir”.

Milli Məclisin üzvü, Əməkdar jurnalist Sevil Mikayılova xalqımızın tarixi qələbəsinə gələn yolun ağrı-acılı, faciələrlə dolu olduğunu qeyd edib.

*(ardı 8-ci səhifədə)*


**bp-nin regional prezidenti BDU Nəşr Evinin fəaliyyəti ilə tanış olub** ➔Səh.4

# Ölkənin birinci bankı və birinci universiteti arasında memorandum imzalandı

***Fevralın 2-də ölkənin birinci bankı Kapital Bank və birinci universiteti Bakı Dövlət Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb. Bununla da Kapital Bank daha bir ali məktəblə strateji əməkdaşlığın əsasını qoyub. İmzalanma mərasimində Kapital Bankın İdarə Heyətinin üzvü, İdarə Heyəti sədrinin birinci müavini Cavid Mirzəyev və BDU rektoru Elçin Babayev iştirak edib.***

Rektor Elçin Babayev bu əməkdaşlığın tələbələrin əmək bazarına peşəkar kadr olaraq hazırlanmasına müsbət təsir edəcəyini vurğulayıb: "Bizim fəaliyyətimizin prioritetlərindən biri də universitet və işəgötürənlər, həmçinin biznes strukturları ilə əlaqələrin gücləndirilməsidir.

Kapital Bankla əməkdaşlığımız tələbələrimiz üçün uğurlu karyera yolunda yeni imkanlar açacaq. Burada təcrübə mübadiləsi, bankın peşəkar kadrları tərəfindən tələbələrə təlimlərin keçirilməsi, onların tədris prosesinə cəlb olunması kimi bir çox məqamlar yer alır. Nəticədə bütün bunlar tələbələrimizin rəqabətli əmək bazarında daha





dayanıqlı mövqelərdə olmasına səbəb olacaq".

Tədbirdə çıxış edən Cavid Mirzəyev isə bu əməkdaşlığı tarixi hadisə adlandırıb: "Ölkənin birinci bankı olaraq, qədim tarixə malik Bakı Dövlət Universiteti ilə əməkdaşlığımızı daha böyük müstəvidə rəsmiləşdirmək bizim üçün olduqca vacib hadisədir. Təhsilə dəstək Kapital Bankın sosial məsuliyyət layihələrinin ən vacib, starteji istiqamətlərindən biridir. Təcrübə göstərir ki, bu kimi əməkdaşlıqlar sayəsində tələbələrimiz praktiki biliklər əldə edir, gələcək karyeraları üçün vacib olan təcrübələri qazanır, eləcə də iş dünyasına daha hazırlıqlı şəkildə atılırlar. Biz isə peşəkar korporativ mühitə hazır olan gənclərlə əməkdaşlıq edə bilirik. Hazırda bankımızda 748 nəfər BDU məzunu çalışır. Onlardan 68-i isə rəhbər vəzifələrdə yer alır. Bu rəqəmlər BDU məzunlarının maliyyə sektorunda da kifayət qədər uğurlu kadrlar olduğunun göstəricisidir. Düşünürəm ki, BDU-nun təhsil metodikası Kapital Bankın təcrübəsi ilə birləşdikdə gənclərin inkişafı üçün daha geniş platforma yaranacaq".

İmzalanma mərasimindən sonra Bakı Dövlət Universitetinin nəzdində müasir texnologiyalar və avadanlıqlarla təchiz edilmiş, müasir standartlara cavab verən "Kapital Bank otağı"nın açılış mərasimi keçirilib. Mərasimdə Kapital Bankın menecer heyətində yer alan və BDU məzunu olan bank əməkdaşları öz təəssüratlarını bölüşüb, birgə əməkdaşlığın faydalı olacağına əminliklərini bildiriblər.

Qeyd olunmalıdır ki, hər zaman təhsilə dəstək layihələri ilə gündəmə gələn Kapital Bankın Azərbaycanın bir sıra aparıcı universitetlərində də "Kapital Bank otaqları" fəaliyyət göstərir. Bu otaqlarda tələbələrin peşəkar və şəxsi inkişafına müsbət təsir edən layihələr həyata keçirilir.

## BDU-nun rektoru UNCOPUOS-un Elm və Texnika üzrə Alt Komitəsinin 63-cü sessiyasında iştirak edib

***Fevralın 3-də BDU-nun rektoru Elçin Babayev Birləşmiş Millətlər Təşkilatının Kosmosdan Dinc Məqsədlər üçün İstifadə üzrə Komitəsinin (UNCOPUOS) Elm və Texnika üzrə Alt Komitəsinin 63-cü sessiyasında iştirak edib.***



Avstriyanın paytaxtı Vyanada təşkil olunan sessiya çərçivəsində kosmik tədqiqatlar və innovativ texnologiyalar üzrə beynəlxalq əməkdaşlıq gündəliyi ətrafında müzakirələr aparılıb.

Qeyd olunmalıdır ki, UNCOPUOS BMT Baş Assambleyası tərəfindən kosmosun bütün bəşəriyyətin rifahı naminə dinc məqsədlərlə istifadəsini tənzimləmək məqsədilə yaradılmış əsas beynəlxalq platformadır. Komitənin Elm və Texnika üzrə Alt Komitəsi isə kosmik tədqiqatlar, texnoloji inkişaflar və beynəlxalq əməkdaşlıq mexanizmlərinin müzakirə olunduğu, qlobal gündəliyin formalaşmasına töhfə verən mühüm institusional mexanizm kimi çıxış edir.

## Müdafiə Sənayesi Nazirliyi və BDU arasında universitet-sənaye tərəfdaşlığı müzakirə edilib




***Fevralın 13-də Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini Hidayət Əzimov BDU-nun rektoru Elçin Babayevlə görüşüb.***

Görüşdə müdafiə sənayesi sahəsində yüksəkixtisaslı kadr hazırlığının gücləndirilməsi və innovativ təşəbbüslərin təşviqi məsələləri ətrafında fikir mübadiləsi aparılıb, universitet-sənaye-dövlət əməkdaşlığı əsasında 2026-cı ildə icrası nəzərdə tutulan yeni layihələr müzakirə edilib. Bununla yanaşı, 2025-ci ildə uğurla həyata keçirilən "DefAge Bootcamp" layihəsinin nəticələri təqdim olunub.

Qeyd edilib ki, müasir texnoloji çağırışlar fonunda ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq ölkəmizin müdafiə sənayesinin inkişafında mühüm rol oynayır.

Müzakirələr zamanı ali təhsil müəssisəsinin fəaliyyəti, tədris və tədqiqat imkanları, müdafiə sənayesi istiqaməti üzrə həyata keçirə biləcəkləri işlər barədə geniş məlumat verilib.

Tərəflər MSN ilə BDU arasında əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsi, birgə elmi layihələrin həyata keçirilməsi, tələbə və gənc tədqiqatçıların müdafiə sənayesi istiqamətində fəaliyyətə cəlb olunması, eləcə də tələbələrin istehsalat təcrübələrinin təşkili məsələlərini nəzərdən keçiriblər.

Səmimi və işgüzar şəraitdə keçən görüşdə MSN tərəfindən icrası davam edən universitet-sənaye-dövlət əməkdaşlığı layihələrinə BDU-nun da qoşulması, gələcək fəaliyyət istiqamətləri üzrə əlaqələrin davam etdirilməsi, həmçinin belə görüşlərin mütəmadi keçirilməsi barədə razılıq əldə olunub.

## BDU rektorunun Vyanaya səfəri çərçivəsində səfirlə görüşü keçirilib

***Fevralın 4-də BDU-nun rektoru Elçin Babayev səfər proqramı çərçivəsində Vyana şəhərində Azərbaycan Respublikasının Avstriya Respublikasında və Sloveniyada fövqəladə və səlahiyyətli səfiri, eyni zamanda Azərbaycanın Vyanada yerləşən beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Rövşən Sadıqbəyli ilə görüşüb.***

Görüş zamanı Avstriya və Sloveniya universitetləri ilə BDU arasında ali təhsil, elmi-tədqiqat və akademik mübadilə sahələrində əməkdaşlıq imkanları müzakirə olunub. Bununla yanaşı, Vyanada fəaliyyət göstərən bir sıra beynəlxalq təşkilatlarla birgə elmi və institusional layihələrin həyata keçirilməsi, universitetlərarası tərəfdaşlıqların qurulması və BDU-nun beynəlxalq elmi platformalarda təmsilçiliyinin gücləndirilməsi məsələləri diqqət mərkəzində olub.

## BDU Elmi Şurasının növbəti iclası

***Fevralın 27-də Bakı Dövlət Universitetinin Elmi Şurasının növbəti iclası keçirilib.***

İclasda BDU-da 2025-ci ildə beynəlxalq, sosial, elmi-təşkilati fəaliyyət və yerinə yetirilmiş elmi-tədqiqat işləri haqqında hesabatlar dinlənilib.

Sonra cari məsələlərə baxılıb.



# BDU-nun rektoru Vyanada Azərbaycan Mədəniyyət Mərkəzində keçirilən tədbirdə iştirak edib

***Fevralın 4-də Vyanada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində Xalq rəssamı Əşrəf Heybətovun "Azərbaycan – rənglərin yaddaşındakı ölkə" adlı fərdi sərgisinin açılış mərasimi keçirilib. Görkəmli sənətkarın 75 illik yubileyinə həsr olunmuş sərgidə BDU-nun rektoru Elçin Babayev də iştirak edib.***

Sərgidə Azərbaycanın təbiəti, tarixi məkanları, milli-mənəvi dəyərləri, sadə insanların həyatı, adət-ənənələri və milli kimliyi əks etdirən əsərlər nümayiş olunub. Ekspozisiya rəssamın uzun illərə söykənən yaradıcılıq yolunu və Azərbaycan mövzusuna olan dərin bağlılığını dolğun şəkildə təqdim edir.

Sərginin açılışında çıxış edən Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova qeyd edib ki, təqdim olunan əsərlərdə milli-mədəni ənənələr müasir bədii ifadə vasitələri ilə ustalıqla sintez olunur. Onun sözlərinə görə, Əşrəf Heybətovun yaradıcılığında rəng, yaddaş və milli kimlik əsas bədii məfhumlar kimi çıxış edir, tablolar isə Azərbaycanı təkcə coğrafi məkan deyil, həm də mənəvi yaddaş və mənsubiyyət məkanı kimi təqdim edir. Landşaftlar və insan obrazları daha çox emosional və fəlsəfi yozum formasında ifadə olunur.



Xalq rəssamı Əşrəf Heybətov çıxışında bildirib ki, Azərbaycana aid mövzular onun yaradıcılığının əsas qayəsini təşkil edir. Son illərdə isə bu xətti genişləndirərək ümumtürk dünyasına həsr olunmuş silsilə əsərlər üzərində çalışır. Vyanada ikinci dəfə əsərlərini nümayiş etdirən rəssam yubileyi münasibətilə təşkil olunan sərgiyə görə təşəkkürünü bildirib.

Tədbir çərçivəsində Bakı Dövlət Universitetinin rektoru ilə Xalq rəssamı Əşrəf Heybətov arasında görüş də baş tutub. Görüş zamanı rəssam BDU-ya dəvət edilib, universitetdə tələbələr və gənc tədqiqatçılar üçün yaradıcılıq görüşlərinin, sərgi və ustad dərslərinin təşkili, eləcə də incəsənət və mədəni irs sahəsində gələcək əməkdaşlıq imkanları müzakirə olunub. Bu cür təşəbbüslərin gənclərin estetik dünyagörüşünün formalaşmasına və milli-mədəni dəyərlərin akademik mühitdə təbliğinə mühüm töhfə verəcəyi vurğulanıb.

Qeyd edək ki, Əşrəf Heybətov incəsənət sahəsindəki xidmətlərinə görə bir sıra milli və beynəlxalq mükafatlarla təltif olunub. O, Azərbaycan Respublikasının Xalq rəssamı fəxri adına, UNESCO Rəssamlar Federasiyasının üzvlüyünə, eləcə də "Sülh səfiri" beynəlxalq diplomuna layiq görülüb. Rəssam Azərbaycan Rəssamlar İttifaqının fəxri üzvü olmaqla yanaşı, Azərbaycan–Almaniya Dostluq Cəmiyyəti, Alman Rəssamlar Birliyi kimi beynəlxalq təşkilatların üzvüdür.

# BDU-da dünya şöhrətli alim Lütfi Zadənin 105 illik yubileyi qeyd olunub

***Fevralın 5-də Mexanika-riyaziyyat fakültəsinin təşkilatçılığı ilə dünya şöhrətli alim, qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Lütfi Zadənin anadan olmasının 105 illiyinə həsr olunmuş tədbir keçirilib.***

Riyaziyyat üzrə fəlsəfə doktoru Səbuhi Abdullayev dahi alimin elmi irsi, qeyri-səlis məntiq nəzəriyyəsinin əhəmiyyəti və onun müasir elmdə tətbiq sahələri barədə gənc riyaziyyatçılara ətraflı məlumat verib. Tədbirin gənc nəslin elmə, təhsilə olan marağını artırmaq, Lütfi Zadənin həyatı və elmi fəaliyyəti barədə məlumatlarını genişləndirmək, ona dünya şöhrəti gətirən nəzəriyyələri, elmi nailiyyətləri, kəşfləri barədə biliklərini artırmaq, böyük alimin zəngin irsini və qeyri-səlis məntiq nəzəriyyəsini təbliğ etmək məqsədi daşıdığını deyib.

Texnika elmləri doktoru, Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının vitse-prezidenti, professor Şahnaz Şahbazova Lütfi Zadə ilə bağlı xatirələrini bölüşüb. Lütfi Zadənin dünya elminə verdiyi misilsiz töhfələrin gələcək nəsillər üçün yol göstərən bir məktəb olduğunu qeyd edib.

Tədbirdə BDU-nun kafedra müdirləri - AMEA-nın müxbir üzvü Misir Mərdanov, Əməkdar elm xadimi Arif Səlimov, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Hikmət Əlizadə, yeniyetmə riyaziyyatçılar, həmçinin Lütfi Zadə nəzəriyyəsi ilə məşğul olan gənc alimlər iştirak ediblər.

# BDU Elmi Şurasının növbəti iclası

***Fevralın 13-də Bakı Dövlət Universitetinin Elmi Şurasının növbəti iclası keçirilib.***

Rektor Elçin Babayev gündəlikdə olan məsələləri iclas iştirakçılarının diqqətinə çatdırıb.

İclasda 2025/2026-cı tədris ilinin payız semestrinin imtahan sessiyasının nəticələri və yaz semestrinin təşkili müzakirə olunub.

Qeyd olunub ki, qış imtahan sessiyasında ümumilikdə 23 mindən artıq təhsilalan iştirak edib. Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apellyasiya Komissiyası yaradılıb. Sessiyada müvəffəqiyyət göstəricisi bakalavriat səviyyəsində 79, magistratu-



rada 95, SABAH qruplarında 94 faiz olub.

Qış imtahan sessiyasının nəticələri Elmi Şura üzvləri tərəfindən məqbul hesab edilib.

İclasda Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunun 2025-ci il üzrə hesabatı dinlənilib.

Daha sonra cari məsələlərə baxılıb.

# BDU-nun rektoru Beynəlxalq Kosmik Hava Təşəbbüsü proqramının Rəhbər Komitə iclasında məruzə ilə çıxış edib

***2026-cı il 4–5 fevral tarixlərində Avstriyanın Vyana şəhərində BMT-nin Kosmosdan Dinc Məqsədlər üçün İstifadə üzrə Komitəsinin (UNCOPUOS) koordinasiyası ilə Beynəlxalq Kosmik Hava Təşəbbüsü (International Space Weather Initiative – ISWI) proqramının Rəhbər Komitəsinin növbəti iclası keçirilir.***

İclas çərçivəsində BDU-nun rektoru və ISWI üzrə Azərbaycanın milli koordinatoru Elçin Babayev BMT-nin Xarici Kosmos Məsələləri üzrə Ofisinin (UNOOSA) dəvəti ilə son beş ildə Azərbaycanda kosmik hava sahəsində həyata keçirilmiş elmi və elmi-təşkilati fəaliyyətə həsr olunmuş məruzə ilə çıxış edib.

Təqdimat əsasən Azərbaycanda kosmik hava (Space Weather) istiqamətində həyata keçirilmiş elmi-tədqiqat fəaliyyəti, beynəlxalq əməkdaşlıq mexanizmləri, ölçmə cihazlarından alınan məlumatların təhlili sahəsində əldə olunmuş nəticələrə həsr olunub. Məruzədə ölkədə kosmik hava müşahidələrinin təşkili, beynəlxalq şəbəkələrində iştirak, məlumatların təhlili və modelləşdirmə proseslərinə inteqrasiyası, eləcə də bu istiqamətdə formalaşan elmi potensial geniş şəkildə təqdim edilib.

Eyni zamanda, çıxışda kosmik hava üzrə tədqiqatların ali təhsil mühitinə inteqrasiyası, kadr hazırlığı, gənc tədqiqatçıların və tələbələrin bu sahəyə cəlb olunması, cəmiyyətin maarifləndirilməsi və ictimaiyyətlə əlaqələr fəaliyyətinin gücləndirilməsi məsələlərinə diqqət yetirilib. Vurğulanıb ki, kosmik hava hadisələrinin öyrənilməsi təkcə fundamental elm baxımından deyil, həm də Günəşin Yerə, atmosferə, ionosferə və maqnit sahəsinə, həmçinin bioloji sistemlərə və iqlimə mümkün təsirləri, o cümlədən müasir texnoloji sistemlərin - rabitə, naviqasiya və enerji infrastrukturlarının təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir.

ISWI Rəhbər Komitəsinin iclası milli koordinatorlar üçün öz ölkələrində həyata keçirilən fəaliyyətlərin, tədqiqat nəticələrinin və gələcək planların təqdimatı baxımından mühüm platforma rolunu oynayır. Bu baxımdan, Azərbaycanın kosmik hava sahəsində son illərdə atdığı addımlar və BDU-nun aparıcı akademik mərkəz kimi bu prosesdə oynadığı rol maraqla qarşılanıb.

Qeyd edək ki, Beynəlxalq Kosmik Hava Təşəbbüsü proqramı BMT-nin aidiyyəti qurumları və aparıcı elmi mərkəzlərin iştirakı ilə kosmik havanın öyrənilməsi, monitorinqi və proqnozlaşdırılması istiqamətində qlobal elmi əməkdaşlığı təşviq edən nüfuzlu beynəlxalq platformadır.

# BDU tələbələrinə sığorta sahəsində qərarvermə mexanizmləri izah olunub

***Fevralın 23-də "BDU könüllüləri" təşkilatının Sosial elmlər və psixologiya fakültəsi üzrə üzvləri və "Meqa Sığorta" ASC-nin birgə təşkilatçılığı ilə "Risk psixologiyası və sığorta davranışı" adlı təlim keçirilib.***

Təlimdə ASC-nin ictimaiyyətlə əlaqələr üzrə rəhbəri Emil Ağabağırov tələbələrə sığorta anlayışı barədə məlumat verib. Sonra sığorta sahəsində qərarvermə mexanizmləri müzakirə olunub, risklərin qavranılması və emosional amillərin insan davranışına təsiri təhlil edilib. İştirakçılar real həyat nümunələri əsasında risk davranışlarını analiz edərək interaktiv müzakirələr aparıblar.

Təlimin praktik hissəsində təlimçi sığorta sahəsi üzrə peşəkar təcrübəsini iştirakçılarla bölüşüb, sığorta mexanizmləri və real iş mühiti ilə bağlı məlumatları təqdim edib. İştirakçıların mövzu ətrafında çoxsaylı sualları cavablandırılıb. Sessiyanın sonunda təlim proqramını uğurla tamamlayan tələbələrə sertifikatlar təqdim olunub.

# BDU Elmi Kitabxanasının elektron bölməsinin bp-nin dəstəyi ilə yenidənqurulmadan sonra açılış mərasimi

***Fevralın 18-də BDU-nun Elmi Kitabxanasının elektron bölməsinin bp-nin dəstəyi ilə yenidənqurulmadan sonra açılış mərasimi keçirilib.***





Mərasimdə çıxış edən rektor Elçin Babayev qeyd edib ki, Bakı Dövlət Universitetinin strateji inkişaf planında təhsilverənlər və təhsilalanlar üçün müasir tələblərə cavab verən mühitin yaradılması əsas prioritetlərdən biridir. Bu istiqamətdə atılan mühüm addımlardan biri də universitetdə rəqəmsal kitabxananın istifadəyə verilməsidir. Universitet-sənaye-biznes əməkdaşlığı çərçivəsində bp şirkətinin dəstəyi ilə kitabxana tamamilə yenidən qurulub. Klassik kitabxana ənənələri qorunub saxlanılmaqla yanaşı, rəqəmsallaşma elementləri kitabxananın fəaliyyətinə ciddi şəkildə inteqrasiya olunub. Buradan həm BDU-nun elektron kitabxana bazasına, həm də nüfuzlu EBSCO bazasına çıxış mümkündür. Eyni zamanda, “Elsevier” tərəfindən yaradılan imkanlar sayəsində tələbələr və professor-müəllim heyəti üçün geniş elmi resurslara çıxış təmin olunub.

Rektor diqqətə çatdırıb ki, ölkədə rəqəmsal arxitekturanın yaradılması fonunda BDU-nun bütün kitabxanalarının bu model əsasında yenilənməsi yaxın müddətdə həyata keçiriləcək: “Rəqəmsallaşmanın yalnız kitabxana ilə məhdudlaşmaması, bütövlükdə Universitetin fəaliyyətinə tətbiq edilməsi artıq öz müsbət nəticələrini verir. Əminik ki, gələcəkdə bu yanaşmanın faydalarını daha aydın şəkildə hiss edəcəyik”.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli isə vurğulayıb ki, təhsil bir millətin ən böyük sərvətidir: “bp olaraq biz gələcək nəslin bilik əldə etməsinə dəstək göstərən bu möhtəşəm təhsil ocağına yardım və töhfə verməkdən qürur duyuruq. Bu gün bilik yaradarkən tələbələrlə bilik arasında mövcud olan bütün maneələri aradan qaldırmaq olduqca vacibdir. Rəqəmsal platforma yaradılmaqla tələbələr ehtiyac duyduqları məlumatlara asanlıqla çıxış əldə edə bilirlər. Bu mühit tələbələrin toplaşaraq ideyalarını paylaşması üçün həqiqətən də möhtəşəmdir. Onlar kitabı rəqəmsal şəkildə tez tapıb oxuya, sonra isə dostları ilə müzakirə edə bilərlər”.

Cio Kristofoli qeyd edib ki, bütün bunlar gənc nəslin intellektual inkişafını təşviq edən, bilik və bacarıq kapitalını formalaşdıran gözəl bir mühit yaradır. Bu isə qarşıdakı onilliklər ərzində Azərbaycan üçün həlledici əhəmiyyət daşıyacaq.

Qeyd edək ki, layihə çərçivəsində bütün kitabxana fondunun elektron məlumat bazası vasitəsilə tam şəkildə idarə olunmasını təmin edən xüsusi proqram təminatı hazırlanıb. Kitablara izləmə çiplərinin tətbiqi, eləcə də əl terminallarının və çiplə təchiz edilmiş materialların proqram platformasına tam inteqrasiyası daxil olmaqla, effektiv inventar idarəetmə sisteminin yaradılması həyata keçirilib. Yeni rəqəmsal kitabxana sisteminin səmərəli fəaliyyəti üçün zəruri fiziki infrastruktur quraşdırılıb.

# bp-nin regional prezidenti BDU Nəşr Evinin fəaliyyəti ilə tanış olub

***Fevralın 18-də bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli BDU Nəşr Evinin fəaliyyəti ilə tanış olub.***

Burada yaradılan şəraiti və istehsal olunmuş çap məhsullarını yüksək qiymətləndirən qonaq qeyd edib ki, bütün bunlar bp-nin ölkədə təhsilə və digər mühüm sosial inkişaf sahələrinə davamlı dəstəyinin gözəl nümunəsidir.

Qeyd edək ki, BDU Nəşr Evi “bp Azerbaijan” şirkətinin dəstəyi ilə 2021-ci ildə yenidən qurulub.



# bp-nin regional prezidenti Cio Kristofoli BDU-nun Faydalı qazıntılar muzeyinin fəaliyyəti ilə tanış olub

***Fevralın 18-də bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli ötən il bp və tərəfdaş şirkətlərin dəstəyi ilə əsaslı təmir olunan BDU-nun Faydalı qazıntılar muzeyinin fəaliyyəti ilə tanış olub.***




Bildirilib ki, məkan kitabxana-muzey-tədris laboratoriyası kimi fəaliyyət göstərir. 1997-ci ildən akademik Musa Əliyev adına kabinetin fəaliyyət göstərdiyi Muzeydə əsaslı təmir zamanı akademikin şəxsi kitabxanası rəqəmsallaşdırılaraq müəllim və tələbələrin ixtiyarına verilib.

Qonaq bp-nin dəstəyi ilə muzeydə yaradılan rəqəmsal tədris şəraitini yüksək qiymətləndirib.

Qeyd edək ki, 1944-cü ildə yaradılan Muzey ötən il bp və şirkətin Azəri-Çıraq-Günəşli, Bakı-Tbilisi-Ceyhan, Şahdəniz və Cənubi Qafqaz Boru Kəməri layihələrindəki tərəfdaşlarının (“SOCAR”, “TPAO”, “LUKOİL”, “SGC”, “NİCO”, “MOL”, “İNPEX”, “ExxonMobil”, “İTOCHU”, “ONGC Videsh”, “Eni”, “MVM” və “TotalEnergies”) dəstəyi ilə əsaslı təmir olunub.

# BDU Kamerunun Kesmonds Beynəlxalq Universiteti ilə əməkdaşlığa başlayır

***Fevralın 19-da BDU ilə Kamerun Respublikasının Kesmonds Beynəlxalq Universiteti arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Kesmonds Beynəlxalq Universitetinin rektoru Atanga D. Funvie imzalayıblar.

Memoranduma əsasən, hər iki universitetin nəzdində fəaliyyət göstərən fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Sənəddə konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kurs və təlimlərin təşkili, ortaq elmi-tədqiqat işlərinin aparılması öz əksini tapıb.

Elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramlar, tədris planları və sillabusların işlənib hazırlanması, eləcə də akademik və inzibati heyətin, tələbə, magistrant, doktorant və tədqiqatçıların qarşılıqlı mübadiləsi də əməkdaşlıq istiqamətləri sırasındadır.

Əsası 2010-cu ildə qoyulmuş Kesmonds Beynəlxalq Universiteti Kamerun Respublikasının nüfuzlu ali təhsil müəssisələrindən biri hesab olunur.

# BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin şagirdlərinin növbəti uğuru

***Fevralın 3-də BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin şagirdləri Respublika Fənn Olimpiadalarında (RFO) uğurla iştirak ediblər. Belə ki, liseyin olimpiadalarda iştirak edən 214 şagirdindən 92 nəfəri müsabiqənin rayon (şəhər) mərhələsində uğur qazanaraq növbəti mərhələyə adlayıb.***

Liseyin şagirdlərindən 17-si Azərbaycan dili, 2-si Biologiya, 5-i Coğrafiya, 6-sı Fizika, 11-i Kimya, 36-sı Riyaziyyat, 3-ü Tarix, 12-si İnformatika fənləri üzrə olimpiadada iştirak edib.

# BDU və “BP Eksploreyşn (Kaspian Si) Limited” arasında əməkdaşlıq müqaviləsi imzalanıb

***Fevralın 18-də Bakı Dövlət Universiteti və “BP Eksploreyşn (Kaspian Si) Limited” arasında əməkdaşlıq müqaviləsi imzalanıb.***

Sazişin imzalanmasında əsas məqsəd Universitet ekosisteminin daha da gücləndirilməsi və biliklərin artırılmasına dəstək verməklə uzunmüddətli akademik inkişaf və innovasiyalar üçün şəraitin yaradılmasıdır.

Mərasimdə çıxış edən BDU rektoru Elçin Babayev qeyd edib ki, bp ilə əməkdaşlıq universitet-sənaye əməkdaşlığının ən gözəl nümunəsi hesab edilə bilər. O, bp şirkətinin fəaliyyət göstərdiyi regionlarda uğurlu iqtisadi, biznes layihələri ilə yanaşı, sosial sahəyə yönəlmiş fəaliyyəti ilə daim seçildiyini qeyd edib. Bildirib ki, təkcə son beş ildə BDU-da bp-nin dəstəyi ilə artıq üçüncü layihə icra olunmaqdadır. 2021-ci ildə BDU-nun Nəşr Evi "bp



Azerbaijan" şirkətinin dəstəyi ilə yenidən qurulub. Ötən il BDU-nun Faydalı qazıntılar muzeyi bp və tərəfdaş şirkətlərin dəstəyi ilə əsaslı təmir olunaraq rəqəmsallaşdırılıb. Bu gün açılışı olan layihə - BDU Elmi Kitabxanasının elektron bölməsinin yenidənqurulmadan sonra istifadəyə verilməsi də BDU-da təhsilin və elmin inkişafı üçün atılmış mühüm addımdır. Yeni rəqəmsal kitabxana tələbələr və müəllim heyəti üçün geniş bilik bazasına məsafədən və birbaşa çıxış imkanı yaratmaqla BDU-da təhsil prosesini əhəmiyyətli dərəcədə gücləndirməyə kömək edəcək. Həmçinin istifadəçilərə beynəlxalq elmi bazalara giriş imkanı verəcək. Rektor BDU-nun inkişafına verdiyi töhfələrə görə bp şirkətinə təşəkkür edib: “bp ilə birgə yeni uğurlu layihələrin olacağına əminik. Ölkədə kadr hazırlığına, elmin inkişafı və tədrisin zənginləşməsinə birlikdə töhfə verəcəyik”.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli BDU-nun müasir, rəqəmsal imkanlarla təchiz olunmuş kitabxana sisteminə keçidini dəstəkləməkdən qürur duyduqlarını bildirib. O qeyd edib ki, biliklərə çıxış uğurlu təhsil prosesinin əsasını təşkil edir və bu layihə tələbələr, müəllimlər və tədqiqatçılar üçün öyrənmə, innovasiya və əməkdaşlıq baxımından yeni geniş platforma təmin edir: “Hesab edirik ki, bu təşəbbüs tələbələrə fayda verməklə yanaşı, Universitetin əvəzolunmaz bilik fondunun gələcək nəsillər üçün qorunub saxlanılmasına da töhfə verir. BDU-nun mövcud kitabxanasında təxminən 2,5 milyon nadir kitab, əlyazma və tarixi sənədlər saxlanılır. Yeni sistem müasir rəqəmsal arxivləşdirmə və inventar idarəetməsi təcrübələrini tətbiq etməklə bu dəyərli kitabxana fondunun qorunması və saxlanmasının təkmilləşdirilməsinə kömək edəcək. Bu, bp-nin Azərbaycanda ali təhsilin və elmi tədqiqatların keyfiyyətinin artırılmasına verdiyi dəstəyi əks etdirir”.

# Qırğız Milli Universitetinin rektoru BDU-da mühazirə deyib

***Fevralın 18-də BDU-da Qırğızıstanın Yusif Balasaqunlu adına Qırğız Milli Universitetinin rektoru Dogdurbek Çontoyev tələbələrə mühazirə deyib.***

BDU-nun Ekoloji kimya kafedrasının müdiri, professor Sevinc Hacıyeva hazırda Universitetdə ətraf mühitin mühafizəsi, iqlim dəyişmələri, su ehtiyatlarının idarə olunması və davamlı inkişaf istiqamətində həyata keçirilən tədris proqramları və elmi-tədqiqat işləri barədə ətraflı məlumat verib. Bildirib ki, BDU-da ekoloji problemlərin kompleks şəkildə araşdırılması, regionun çağırışlarına uyğun mütəxəssis hazırlığı və beynəlxalq əməkdaşlığın genişləndirilməsi əsas prioritet istiqamətlərdəndir.

Daha sonra Qırğız Milli Universitetinin rektoru, coğrafiya elmləri doktoru, professor Dogdurbek Çontoyev “Mərkəzi Asiyada dövlətlərarası su bölgüsü



problemləri və onların həlli yolları” mövzusunda mühazirə deyib. Rektor öncə rəhbərlik etdiyi universitet haqqında məlumat verərək, ali təhsil müəssisəsinin elmi potensialı, fakültələri və beynəlxalq əlaqələri barədə danışıb. O, Qırğız Milli Universiteti ilə BDU arasında oxşar fakültə və ixtisasların mövcud olduğunu vurğulayaraq, ekologiya, coğrafiya, hidrometeorologiya və ətraf mühitin idarə olunması sahələrində də mümkün əməkdaşlıq imkanlarından söz açıb. Məruzədə Mərkəzi Asiyada dövlətlərarası su bölgüsü məsələlərinin tarixi, hüquqi və geosiyasi aspektləri təhlil edilib, region ölkələri arasında transsərhəd su ehtiyatlarının bölüşdürülməsi zamanı yaranan problemlər və onların sosial-iqtisadi təsirləri izah olunub. Qeyd edilib ki, iqlim dəyişmələri, buzlaqların əriməsi, yağıntı rejiminin dəyişməsi və suya artan tələbat mövcud hidrometeoroloji problemləri daha da kəskinləşdirir. Bu baxımdan, su ehtiyatlarının səmərəli idarəolunması, birgə monitorinq mexanizmlərinin yaradılması və məlumat mübadiləsinin gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Professor həmçinin Mərkəzi Asiya və Xəzər regionunda ətraf mühitin mövcud vəziyyəti, hidrometeoroloji müşahidə sistemlərinin təkmilləşdirilməsi, elmi araşdırmaların dərinləşdirilməsi və institusional əlaqələrin möhkəmləndirilməsi yolları barədə fikirlərini bölüşüb.

Mühazirənin sonunda tələbə və müəllimlərin mövzu ətrafında sualları cavablandırılıb, müzakirələr aparılıb.

# Qırğızıstanın Yusif Balasaqunlu adına Qırğız Milli Universitetinin rektorunun rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da

***Fevralın 18-də Qırğızıstanın Yusif Balasaqunlu adına Qırğız Milli Universitetinin rektoru Dogdurbek Çontoyevin rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***



Rektor Elçin Babayev Bakı Dövlət Universitetinin türkdilli ölkələrin ali təhsil müəssisələri, o cümlədən Qırğız Milli Universiteti ilə əməkdaşlığı daha da genişləndirməsinə, birgə tədqiqatlara, müəllim-tələbə mübadiləsinə ehtiyac duyulduğunu qeyd edib. O bildirib ki, 25 mindən artıq tələbəsi olan BDU-nun 16 fakültəsində elmin bütün sahələri üzrə yüksəkixtisaslı mütəxəssislər hazırlanır.

Qırğız Milli Universitetinin rektoru Dogdurbek Çontoyev BDU ilə əməkdaşlığın hər iki ali təhsil müəssisəsi üçün böyük perspektivlər açacağını vurğulayıb, birgə fəaliyyətin gələcəkdə daha yüksək səviyyəyə çatdırılacağına əminliyini ifadə edib. Görüşdə iki ali təhsil müəssisəsi arasında təhsil, elm və tədqiqat sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub.

# BDU-da “İnsan alveri ilə mübarizə” mövzusunda təlim

***Fevralın 27-də Bakı Dövlət Universitetində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi “İnsan alveri ilə mübarizə” mövzusunda təlim keçirib.***

Mərkəzin əməkdaşı Fatimə Abışova insan alveri cinayətlərinin milli qanunvericilikdə və beynəlxalq sənədlərdəki tənzimlənmə formalarına aydınlıq gətirib. Təlimdə insan alverinin insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, adam oğurluğu, insan qaçaqmalçılığı ilə fərqi izah olunub. İnsan alveri qurbanlarının tora salınma üsullarından danışan təlimçi mövzu ilə bağlı statistik məlumatları da tələbələrin diqqətinə çatdırıb.

Təlim diskussiya formatında davam edib.

# Macarıstanın Azərbaycandakı səfiri və Pannoniya Universitetinin rektoru BDU-da

***Fevralın 16-da Macarıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Tamaş Yojef Torma və Pannoniya Universitetinin rektoru Yanoş Abonyinin rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***

Qonaqları salamlayan rektor Elçin Babayev BDU-nun tarixi, elmi və tədris mühiti, beynəlxalq əlaqələri barədə məlumat verib. BDU-nun Macarıstanın ali təhsil müəssisələri ilə əməkdaşlıqda, memorandumların imzalanması, ikili diplom proqramlarının hazırlanmasınında maraqlı olduğunu qeyd edib. Rektor Pannoniya Universiteti ilə kimya, fizika, biologiya, riyaziyyat, psixologiya, iqtisadiyyat sahələri üzrə geniş əməkdaşlıq və birgə tədqiqat aparmaq imkanlarının olduğunu diqqətə çatdırıb.



Macarıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Tamaş Yojef Torma Azərbaycanla Macarıstan arasında elm, təhsil sahəsindəki əməkdaşlığın ikitərəfli əlaqələrə böyük töhfə verdiyini vurğulayıb. Macarıstanda fəaliyyət göstərən ali təhsil müəssisələri ilə BDU arasında əlaqələrin yaradılmasının hər iki universitet üçün geniş perspektivlər aça biləcəyini qeyd edib. Pannoniya Universitetinin rektoru Yanoş Abonyi də BDU ilə akademik əməkdaşlığın qurulmasının önəmini vurğulayıb.

Görüşdə BDU ilə Pannoniya Universiteti arasında tələbələrin və akademik heyətin qısamüddətli və uzunmüddətli mübadiləsi, birgə elmi tədqiqatların aparılması və ortaq konfransların keçirilməsi, psixologiya, kimya mühəndisliyi, iqtisadiyyat sahələri üzrə ikili diplom proqramlarının hazırlanmasına dair müzakirələr aparılıb.

# BDU-da "Heydər Əliyev mühazirələri" çərçivəsində millət vəkili Elman Məmmədovla görüş

***Fevralın 19-da Bakı Dövlət Universitetinin və Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə "Heydər Əliyev mühazirələri" layihəsi çərçivəsində YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədovla görüş keçirilib.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov bildirib ki, "Heydər Əliyev mühazirələri" gənclərin dövlətçilik təfəkkürünün formalaşmasında mühüm rol oynayır. Bu mühazirələr Ulu Öndərin zəngin siyasi irsinin, azərbaycançılıq ideologiyasının və müasir müstəqil dövlət quruculuğu konsepsiyasının elmi əsaslarla təbliğini təmin edir. Mühazirələr Ulu Öndər Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu fəaliyyətini, ölkəmizin müasir inkişaf strategiyasının siyasi-ideoloji dayaqlarını dərindən anlamağa imkan yaradır.



YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev müasir Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin hər zaman qürur hissi ilə xatırlanacağını deyib. Qeyd edib ki, Ümummilli Lider Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən dahi olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir: "Xalqımız həm də ona görə xoşbəxtdir ki, Ümummilli Lider Heydər Əliyevin ideyaları, müəyyənləşdirdiyi siyasi xətt, dövlətçiliyimizin hərtərəfli inkişaf konsepsiyası onun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün daim azərbaycanlı olması ilə fəxr edən Ümummilli Lider Heydər Əliyevin ruhu şaddır - xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyü onun siyasi xəttini davam etdirən, yarımçıq qalmış arzuları ilə bağlı vəsiyyətlərini gerçəkləşdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bərpa edilib".

Daha sonra məruzə ilə çıxış edən Elman Məmmədov Ümummilli Lider Heydər Əliyevin müasir Azərbaycanın inkişaf strategiyasının müəllifi olduğunu deyib. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin siyasi varisi, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan qüdrətli və qalib ölkəyə çevrilib. Ulu Öndərin respublikamıza rəhbərlik etdiyi 1969–1982-ci illər Azərbaycanda quruculuq salnaməsinin parlaq dövrü kimi tarixə düşüb. 1993-2003-cü illər Ümummilli Liderin rəhbərliyi ilə Azərbaycan tarixində inkişafın və tərəqqinin bünövrəsinin qoyulduğu dövr kimi tarixin yaddaşına qızıl hərflərlə yazılıb. 2003-cü ildən başlayaraq isə Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyi qələbələr, uğurlarla Azərbaycan inkişafın yeni mərhələsinə qədəm qoyaraq regional güc mərkəzinə çevrilib, dünyada öz layiqli yerini tutub.

Çıxışlardan sonra tələbələrin sualları cavablandırılıb.

# BDU-da "Azərbaycan dili - Açıq dərslər" layihəsinin ilk görüşü

***Fevralın 20-də Bakı Dövlət Universitetində "BDU könüllüləri" təşkilatının təşəbbüsü ilə "Azərbaycan dili - Açıq dərslər" layihəsi başlayıb. Layihənin ilk qonağı BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev olub.***

İnteraktiv müzakirə ilə başlayan görüşdə BDU-nun prorektoru Əliş Ağamirzəyev bildirib ki, dil millətin varlığının saxlanılması baxımından əsas vasitədir: "Günümüzdə dilin saflığının qorunması prioritetə çevrilib. Prezident İlham Əliyevin ötən il Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında və bu il yerli televiziya kanallarına verdiyi müsahibədə Azərbaycan dilinin saflığının qorunması və düzgün tətbiqi ilə bağlı verdiyi istiqamətlər, söylədiyi fikirlər məsələnin mahiyyətini bir daha ortaya qoymaqla bərabər, dilimizə olan yüksək diqqətin təzahürüdür. Azərbaycanın böyük mütəfəkkirləri, ziyalıları dilimizin xalq arasında geniş yayılmasında və ana dilli əsərlərin yaranmasında böyük xidmətlər göstəriblər. Keçmiş ittifaq dövründə məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan dili haqqında maddənin konstitusiyaya əlavə edilməsi də dilə olan xüsusi münasibətin göstəricisi idi. Günümüzdə də bu siyasət uğurla davam etdirilir".



Əliş Ağamirzəyev qeyd edib ki, dilin saflığının qorunması hər bir vətəndaşın borcudur: "Hazırda ictimaiyyətdə ana dilimizin istifadəsi heç də ürəkaçan deyil. Burda müxtəlif amillər rol oynayır. Bunlardan biri də mediadır. Məsələn, televiziyalarda dilimizlə bağlı ciddi səhvlərə yer verilir ki, bu da izləyicilərə şüuraltı təsir edir. Qeyd olunan məsələləri nəzərə aldıqda problemin həlli üçün kompleks yanaşmaya ehtiyac var. Yad kəlmələri dilimizə qoşmaqdansa, ana dilimizin geniş imkanlarından istifadə edərək nitqimizin səmərəliliyini artırmalıyıq. Bizə, sizə - gənclərə ötürülən bu dili qorumaq hər birimizin əsas borcudur".

Görüş sual-cavab sessiyası ilə davam edib.

# BDU və "CELT Colleges" şirkətinin nümayəndələri arasında onlayn görüş

***Fevralın 3-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzi ilə "CELT Colleges" şirkətinin nümayəndələri arasında onlayn görüş keçirilib.***

Görüşdə BDU-nun Karyera planlaşdırılması şöbəsinin müdiri Günel Qurbanova, baş mütəxəssis İlkin Şərifov, "CELT Colleges"in xaricdə təhsil üzrə direktoru Fərid Kərimov, xaricdə təhsil üzrə meneceri Sona Məhəmmədivand və mütəxəssisi Səbinə Mirzalıyeva iştirak ediblər.

Görüş zamanı Günel Qurbanova Karyera və məzunlarla iş Mərkəzinin fəaliyyəti, həyata keçirilən təşəbbüslər, tələbə və məzunlar üçün reallaşdırılan layihələr, karyera yönümlü tədbirlər, təlim proqramları və məsləhət xidmətləri barədə ətraflı məlumat verib. Bildirib ki, Mərkəzin əsas məqsədi tələbə və məzunların əmək bazarında rəqabət qabiliyyətli bacarıqlara yiyələnməsinə dəstək olmaq və onların peşəkar mühitlə əlaqələrini gücləndirməkdir.

İlkin Şərifov xaricdə təhsil mövzusunda seminarların, infosessiyaların və tanıtım görüşlərinin təşkilinin məqsədəuyğun olduğunu qeyd edib.

"CELT Colleges"in xaricdə təhsil üzrə direktoru Fərid Kərimov şirkətin fəaliyyət istiqamətləri, tələbə və məzunlar üçün təqdim etdiyi xaricdə təhsil imkanları, eləcə də müxtəlif ölkələr üzrə təhsil və məşğulluq perspektivləri barədə məlumat verib. Görüş zamanı müəllimlik ixtisası üzrə təhsil alan tələbə və məzunların "CELT Colleges"in təcrübə proqramlarında iştirak imkanları da müzakirə olunub.

# BDU və "Grand-Agro İnvitro" MMC arasında anlaşma memorandumu imzalanıb

***Fevralın 20-də BDU və "Grand-Agro İnvitro" MMC arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb.***

Memorandumu BDU rektoru Elçin Babayev və "Grand-Agro İnvitro" MMC-nin rəhbəri Ramil Əzməmmədov imzalayıblar.

İmzalanma mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, elm və təhsilin sənaye və bizneslə əlaqələndirilməsi, dövlət-özəl tərəfdaşlığı, alınmış elmi nəticələrin kommersiyalaşdırılması BDU-nun əsas hədəflərindəndir. O, əməkdaşlıq müqaviləsinin hər iki qurum üçün faydalı olacağına əminliyini bildirib.

"Grand-Agro İnvitro" MMC-nin rəhbəri Ramil Əzməmmədov isə BDU ilə birgə əməkdaşlığın həm elmi, həm praktik nəticələr verəcəyini qeyd edib.



Müqavilə çərçivəsində tərəflər tədqiqat və inkişaf layihələri hazırlayaraq icra edəcək, elmi potensialın səmərəli reallaşdırılmasına yönəlmiş qarşılıqlı təşəbbüsləri dəstəkləyəcəklər. Təhsilalanların müasir əmək bazarının tələblərinə uyğun bilik, bacarıq və səriştələrlə təmin olunması, praktiki vərdişlərinin inkişaf etdirilməsi, elmi-tədqiqat layihələrinə cəlb olunması, tələbələrin ixtisas istiqamətləri üzrə təcrübə proqramlarının təşkili, elmi-tədqiqat laboratoriyalarının maddi-texniki bazasının genişləndirilməsi və fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi, akademik və sənaye tərəfdaşlığı çərçivəsində innovativ məzmunlu layihələrin hazırlanması və icrası da memorandumda əks olunub.

# BDU-da Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti ilə görüş

***Fevralın 20-də BDU-nun rektoru Elçin Babayev Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova ilə görüşüb.***

Rektor qonağa BDU-nun türkdilli ölkələrlə elm, təhsil, mədəniyyət sahələrində əməkdaşlığı barədə məlumat verib. Universitetin bu əlaqələri genişləndirməkdə daim maraqlı olduğunu vurğulayıb. Qeyd edib ki, BDU-da Türkologiya, Türk filologiyası kafedraları fəaliyyət göstərir. BDU-da Azərbaycanın mədəni irsinin, tarixi abidələrinin və nadir memarlıq nümunələrinin elmi əsaslarla tədqiqi, öyrənilməsi və təbliği məqsədilə Mədəni İrsi Araşdırmalar Mərkəzi yaradılıb. Universitetin güclü elmi-pedaqoji potensialı bu sahədə genişmiqyaslı tədqiqatların aparılmasına imkan yaradır. Rektor Türk dünyasının zəngin mədəni irsinin araşdırılması, qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Bu sahədə birgə layihələrin, elmi tədqiqatların həyata keçirilməsi, nəşrlərin hazırlanması, ortaq konfransların təşkili üçün geniş potensialın olduğunu diqqətə çatdırıb.



Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova türk xalqlarının ortaq mədəni dəyərlərinin qorunması ilə bağlı birgə elmi təşəbbüslərin və layihələrin həyata keçirilməsinin xüsusi əhəmiyyət daşıdığını bildirib. BDU ilə əməkdaşlığın daha genişləndirilməsində və yeni birgə layihələrin həyata keçirilməsində maraqlı olduğunu vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova rəhbərlik etdiyi qurumun bir sıra nəşrlərini BDU-nun Elmi Kitabxanasına hədiyyə edib.

# "BDU-dan beynəlxalq təcrübəyə" layihəsinin ilk seminarı

***Fevralın 25-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin təşkilatçılığı ilə məzunlar üçün nəzərdə tutulmuş "BDU-dan beynəlxalq təcrübəyə" layihəsinin onlayn formatda ilk seminarı keçirilib.***

Layihənin məqsədi tələbə və məzunları xaricdə təhsil almış, təhsilini davam etdirən və ya çalışan BDU məzunlarının uğur hekayələri ilə tanış etməkdir. Layihə çərçivəsində təşkil olunan bu görüş gənclərin qlobal karyera imkanları barədə məlumatlandırılması baxımından xüsusi əhəmiyyət kəsb edib.

Tədbirin açılışında Mərkəzin Karyera planlaşdırılması şöbəsinin müdiri Günel Qurbanova və Məzunlarla iş şöbəsinin mütəxəssisi Fidan İsmayılova layihənin məqsədi və məzunların beynəlxalq mühitdə praktiki bilik və bacarıqlarının inkişafının əhəmiyyəti barədə məlumat veriblər.

Seminarda BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin məzunu, hazırda Almaniyanın MEDIAN Psixosomatik və Psixoterapiya Klinikasında klinik psixoloq kimi fəaliyyət göstərən Nigar Ramilova "Almaniyada klinik psixoloq kimi işləmək: real proses və çətinliklər" mövzusunda çıxış edib. O, diplomların tanınması, peşə fəaliyyətinə icazə, ixtisasartırma və praktiki hazırlıq mərhələləri barədə məlumat verib. Klinik psixoloq çıxışı zamanı psixologiya sahəsində xaricdə təhsil və karyera planlayan tələbə və məzunlara erkən mərhələdə dil hazırlığına başlamağı, diplomların tanınması prosedurlarını əvvəlcədən araşdırmağı və peşəkar adaptasiya prosesinə hazırlaşmağı tövsiyə edib.

Seminar interaktiv formada davam edib, iştirakçılar beynəlxalq əmək bazarı və psixologiya sahəsində karyera imkanları barədə ətraflı məlumat əldə ediblər.

# Bakı Dövlət Universiteti ilə FAO arasında əməkdaşlıq perspektivləri müzakirə edilib

***Fevralın 23-də Bakı Dövlət Universitetində BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı nümayəndəsi, həmçinin FAO-nun Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Məhəmməd Nasar Hayatın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüş zamanı tərəflər arasında mövcud əməkdaşlıq və gələcək birgə fəaliyyət imkanları geniş şəkildə nəzərdən keçirilib.***

BDU-nun rektoru Elçin Babayev Universitetin aqrar elmlər, biologiya və qida təhlükəsizliyi istiqamətlərində elmi-tədqiqat imkanları, müasir laboratoriya bazası və beynəlxalq layihələrdə iştirak təcrübəsi barədə məlumat verib. Qeyd olunub ki, biologiya, biotexnologiya, torpaqşünaslıq, kimya və qida mühəndisliyi sahələrində formalaşmış elmi mühit beynəlxalq təşkilatlarla birgə layihələrin həyata keçirilməsi üçün əlverişli zəmin yaradır. Rektor FAO ilə əməkdaşlığın elmi-tədqiqat, ekspert dəstəyi və mütəxəssis hazırlığı istiqamətlərində daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.

FAO-nun Azərbaycandakı nümayəndəsi Məhəmməd Nasar Hayat isə rəhbərlik etdiyi təşkilatın təcrübəsi ilə BDU-nun güclü akademik və laboratoriya potensialının birləşdirilməsinin ölkədə kənd təsərrüfatı və qida sistemlərinin inkişafına, eləcə də davamlılığa mühüm töhfə verəcəyini bildirib.

Görüşdə FAO nümayəndələri təşkilatın elmi-tədqiqat və kadr potensialının gücləndirilməsi istiqamətində həyata keçirdiyi təşəbbüslər barədə də məlumat veriblər. Bildirilib ki, FAO öz zəngin kitabxana və informasiya resurslarına BDU əməkdaşlarının çıxışını təmin etməyə hazırdır. Eyni zamanda, Universitetin alim və mütəxəssislərinin FAO-nun beynəlxalq layihələrinə ekspert qismində cəlb olunması təklif edilib.

Müzakirələr zamanı BDU laboratoriyalarında birgə tədqiqatların aparılması, qida təhlükəsizliyi və keyfiyyət sistemləri, o cümlədən HACCP üzrə təlimlərin təşkili, sertifikat proqramlarının hazırlanması və birgə elmi nəşrlərin hazırlanması məsələləri diqqət mərkəzində olub. Həmçinin regionlarda birgə konfrans və elmi-praktik tədbirlərin təşkili, FAO mütəxəssislərinin BDU-da təlim proqramlarında iştirakı və qarşılıqlı bilik mübadiləsinin gücləndirilməsi mövzuları da müzakirə edilib.

Görüşün sonunda tərəflər qarşılıqlı maraq doğuran istiqamətlər üzrə əməkdaşlığın mərhələli şəkildə inkişaf etdirilməsi və konkret fəaliyyət planının hazırlanması barədə razılığa gəliblər.

# BDU Koreyanın Handong Qlobal Universiteti ilə əməkdaşlığa başlayır

***Fevralın 25-də BDU və Koreyanın Handong Qlobal Universiteti arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.***

Sənədi BDU-nun rektoru Elçin Babayev və Handong Qlobal Universitetinin rektoru Dosoung Choi imzalayıb.

Memorandum hər iki universitetin nəzdində fəaliyyət göstərən fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin həyata keçirilməsini nəzərdə tutur. Bu çərçivədə konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kurslar və təlimlərin təşkili, ortaq elmi-tədqiqatların aparılması planlaşdırılır.

Sənəddə həmçinin elmi jurnallarda birgə nəşrlər, ortaq akademik proqramların, tədris planlarının və sillabusların hazırlanması, təlimlərin keçirilməsi, akademik və inzibati heyətin, tələbələrin, magistrantların, doktorantların və tədqiqatçıların qarşılıqlı mübadiləsi kimi məsələlər əksini tapıb.

Əsası 1994-cü ildə qoyulmuş Handong Qlobal Universiteti QS Dünya Universitetləri Reytinqində 2025-ci il üzrə 581-600 yerlər arasında qərarlaşıb.

# BDU-da Xocalı faciəsinin 34-cü ildönümünə həsr olunmuş anım tədbiri

(əvvəli 1-ci səhifədə)

O bildirib ki, Xocalı faciəsi kimi dəhşətlərin bir daha yaşanmaması üçün möhkəm tarixi yaddaşa, hər cür təhdidə sinə gərə biləcək gəncliyə sahib olmaq lazımdır. Sevil Mikayılova xatırladıb ki, Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilib, faciənin cinayətkarları müəyyən edilib. Bugünkü qalib millət statusu və torpaqlarımızın azadlığına qovuşması Ulu Öndər tərəfindən əsası qoyulan yolun məntiqi davamı və uğurlu nəticəsidir.



Milli Məclisin və Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının üzvü Tural Gəncəliyev çıxışında Azərbaycanın tarixi ədalətini özünün bərpa etdiyini və dünyaya dərs verdiyini bildirib: "Xocalı soyqırımının qatilləri yerli və beynəlxalq hüquq müstəvisində öz layiq olduqları cəzanı aldılar. Biz bütün dünyaya göstərdik ki, müzəffər, qalib və ədalətli xalqıq".

BDU-nun İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müdiri Turqay Hüseynov və Tarix fakültəsinin əslən Xocalıdan olan IV kurs tələbəsi Aysel Quliyeva Azərbaycan tarixinin qanlı səhifələrindən olan Xocalı soyqırımının qurbanlarının unudulmayacağını, artıq Böyük Qayıdışın başladığı Xocalının günbəgün daha da gözəlləşəcəyini, inkişaf edəcəyini bildiriblər.

Tədbir BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin hazırladığı ədəbi-bədii kompozisiya ilə davam edib.

# "Tariximizin qanlı yaddaşı - Xocalıdır"

***Fevralın 24-də Kimya fakültəsində Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş "Tariximizin qanlı yaddaşı – Xocalıdır" adlı anım tədbiri keçirilib.***

Tədbir Xocalı faciəsi qurbanlarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Kimya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Taleh Qəhrəmanov Xocalı soyqırımının Azərbaycan tarixinin ən faciəli və qanlı səhifələrindən biri olduğunu vurğulayıb. O qeyd edib ki, 1992-ci il fevralın 26-da dinc əhaliyə qarşı törədilən bu qətliam insanlığa qarşı cinayət kimi tarixə düşüb və Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması hər bir azərbaycanlının mənəvi borcudur.

BDU-nun Ümumi və qeyri-üzvi kimya kafedrasının müdiri Yasin Cəfərov gənc nəslin milli yaddaşa bağlılıq ruhunda formalaşmasının və tarixi həqiqətləri dərindən bilməsinin vacibliyini vurğulayıb.

Tədbirdə tələbələrin ifasında Xocalı faciəsinə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş olunub. Faciənin dəhşətlərini əks etdirən videoçarx təqdim edilib, tarixi faktlara əsaslanan görüntülər və məlumatlar tədbir iştirakçılarına çatdırılıb.

# "Xocalı soyqırımı – yaddaşlardan silinməyən ağrı" adlı foto və kitab sərgisi açılıb

***Fevralın 25-də BDU-nun Elmi Kitabxanasının təşkilatçılığı ilə "Xocalı soyqırımı – yaddaşlardan silinməyən ağrı" adlı foto və kitab sərgisi açılıb.***

Sərgidə Azərbaycan, ingilis və rus dillərində Xocalı faciəsinin tarixi həqiqətlərini, Ermənistanın hərbi-siyasi təcavüzünü və işğalçılıq siyasətini faktlarla əks etdirən 50-dək kitab nümayiş olunur.

Bura "Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi", "Vətən harayı", "Erməni terroru", "Xocalı soyqırımı", "Qarabağ düyünü" kimi kitablar daxildir.



Sərgidə həmçinin Xocalı faciəsinin dəhşətlərini əks etdirən 30-dək tarixi fotoşəkil də təqdim olunur.

Sərgi fevralın 27-dək ziyarətçilərin üzünə açıq olacaq.

# BDU-da Xocalı soyqırımının qurbanları bir dəqiqəlik sükutla yad edilib

***Bakı Dövlət Universitetində Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar saat 17:00-da bütün ölkə ərazisində olduğu kimi, Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

Qeyd edək ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli Sərəncamına əsasən, Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi hər il fevral ayının 26-sı saat 17:00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilir.



# Tarix fakültəsində Xocalı soyqırımının qurbanları anılıb




***Fevralın 24-də BDU fəaliyyət göstərən "YENİ Klub" və Tarix fakültəsi nəzdindəki "İstiqlal klubu"nun birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.***

Əvvəlcə Azərbaycan respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin və Xocalı faciəsi qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun Tarix fakültəsinin dekanı İbrahim Zeynalov Xocalı soyqırımının Azərbaycan tarixinin ən dəhşətli və faciəli səhifələrindən biri, erməni millətçilərinin xalqımıza qarşı iki yüz il ərzində apardığı etnik düşmənçiliyin növbəti mərhələsi olduğunu deyib. Bildirib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarını pozaraq Xocalı üzərinə ağır hərbi texnika yeridib, yerlə yeksan etdikləri şəhərin dinc əhalisinə misli görülməmiş qəddarlıqla divan tutub. Həmin hərbi-siyasi təcavüz zamanı 613 həmvətənimiz, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca həlak olub, 487 dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülərək işgəncələrə məruz qalıb. Xocalı soyqırımına siyasi qiymətin verilməsi isə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə 1994-cü ildə Milli Məclis hər il fevralın 26-sının Xocalı Soyqırımı Günü kimi yad olunması barədə qərar, 1995-ci ildə dünya parlamentlərinə və beynəlxalq təşkilatlara Xocalı soyqırımı ilə bağlı müraciət qəbul edib. Artıq Xocalı soyqırımının qisası alınıb, torpaqlarımız işğaldan azad olunub. Xocalı öz doğma sakinlərini yenidən qoynuna alıb.

BDU-nun Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının dosenti Boran Əziz hadisələrin birbaşa şahidi kimi bu faciə ilə heç vaxt barışmayacağını, soyqırımın bütün dünyaya çatdırılması istiqamətində bütün vətəndaşların həmrəylik nümayiş etdirməyinin vacibliyini qeyd edib.

Tarix fakültəsinin IV kurs tələbəsi, Xocalıdan olan Aysel Quliyeva faciənin dəhşətləri ilə bağlı təəssüratlarını bölüşüb.

Tədbir tələbələrin hazırladığı bədii hissə ilə davam edib.

# BDU-da Xocalı faciəsinə həsr edilmiş xüsusi dərs

***Fevralın 26-da İnformasiya və sənəd menecmenti fakültəsində Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş xüsusi dərs təşkil olunub.***

Əvvəlcə Xocalı soyqırımı zamanı və Vətənimizin azadlığı uğrunda şəhid olan bütün soydaşlarımızın xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Xüsusi dərs Birinci Qarabağ müharibəsinin veteranı, BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslanın mühazirəsi ilə davam edib. Knyaz Aslan ermənilərin tarixən xalqımıza qarşı apardığı düşmənçilik siyasətindən, törətdikləri qanlı cinayətlərdən bəhs edib. Mühazirədə Ermənistanın işğalçılıq siyasəti, Xocalı soyqırımının başvermə səbəbləri, soyqırım qurbanları barədə tələbələrə dolğun informasiya verilib. Natiq faciəyə hüquqi-siyasi qiymətin xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra verildiyini xüsusi vurğulayıb. Həmçinin soyqırımın dünyada tanıdılmasında Heydər Əliyev Fondunun fəaliyyətinin, Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət" kampaniyasının mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.




Xocalı soyqırımının baş verdiyi dövrdə jurnalist kimi fəaliyyət göstərən Knyaz Aslan müxtəlif mətbuat orqanlarında bu mövzuda yazdığı məqalələrdən sitat gətirib, eyni zamanda faciə günlərində gündəliyinə etdiyi tarixi qeydləri oxuyub. Knyaz Aslan qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz sərkərdəliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfər nəticəsində bütün şəhidlərimizin, o cümlədən Xocalı soyqırımı qurbanlarının qisası alınıb, ərazi bütövlüyümüz bərpa edilib: "Bu gün azad Xocalıda üçrəngli bayrağımız qürurla dalğalanır. Xocalı sakinləri artıq öz doğma yurdlarına qayıdıblar, orada yaşayırlar, qurub-yaradırlar. Bu, böyük xoşbəxtlikdir".

Sonra İnformasiya və sənəd menecmenti fakültəsinin tələbəsi – Xocalı sakini İlahə Qənbərova öz təəssüratlarını bölüşüb. Bildirib ki, faciə zamanı bir çox yaxın qohumu vəhşicəsinə qətlə yetirilib, əsir götürülüb. İlahə Qənbərova artıq ailəsinin Xocalıda yaşadığını, özünün də dəfələrlə doğma yurdunda olduğunu bildirib: "Bu gün Xocalı yenidən qurulur, abadlaşır. Bütün bunlar möcüzədir. Şəhidlərimizin ruhu şad, qazilərimiz var olsun".

Tədbirin sonunda Xocalı soyqırımına həsr olunmuş videoçarx nümayiş etdirilib.

# BDU-da "Xocalı – silinməz tarix" adlı anım tədbiri

***BDU-nun Tələbə Gənclər Təşkilatı (TGT) və "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin birgə təşəbbüsü ilə "Xocalı – silinməz tarix" adlı anım tədbiri keçirilib.***

BDU TGT-nin sədri Harun Mehdiyev Xocalı soyqırımının 200 ildən artıq müddətdə erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsi olduğunu bildirib.

Azərbaycan Tibb Universitetinin dosenti, Əməkdar həkim, İctimai Birliyin sədr müavini, I Qarabağ müharibəsi veteranı Taryel Eyvazov Xocalı hadisələrinin canlı şahidi kimi bu faciənin insanlığa qarşı törədilmiş ağır cinayət olduğunu vurğulayıb. Bildirib ki, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi ilə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu düşmən üzərində qələbə çalaraq Xocalı qurbanlarının və bütün şəhidlərimizin intiqamını aldı. Amma illər ötsə, əsrlər bir-birini əvəz etsə də, Xocalı soyqırımı xalqımızın qan yaddaşından heç vaxt silinməyəcək.

İctimai Birliyin İdarə Heyətinin üzvləri Cavanşir Rzazadə, "Qladiator" İdman Klubunun prezidenti, I Qarabağ müharibəsi veteranı Azad Məmmədov və jurnalist Surxay Hümbətov tarixi ədalətin bərqərar olduğunu, Xocalı cəlladlarının Azərbaycanın ədalət məhkəməsi qarşısına çıxarılaraq, layiq olduqları cəzanı aldıqlarını bildiriblər.

# BDU tələbələri arxeobotanika və rəqəmsal arxeologiyaya dair təqdimat ediblər

***Fevralın 20-də Tarix fakültəsində Tələbə Elmi Cəmiyyətinin nəzdində fəaliyyət göstərən "Gənc arxeoloq" dərnəyinin təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm gününə həsr olunmuş "Arxeologiyada multidisiplinar tədqiqatlar" mövzusunda elmi tədbir keçirilib.***

Arxeologiya və etnoqrafiya kafedrasının müdiri, dərnəyin qurucusu, dosent Tarix Dostiyev arxeologiyanın müasir elmlərlə inteqrasiyasının vacibliyini vurğulayıb. Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının dosenti Məmmədağa Baxışov multidisiplinar yanaşmaların gənc tədqiqatçıların elmi fəaliyyətində və gələcək araşdırmalarında mühüm rol oynadığını qeyd edib.

Elmi tədbirdə Tarix fakültəsinin II kurs tələbəsi Maral Əlizadə "Arxeobotanika" mövzusunda məruzə edib. O, qədim yaşayış məskənlərinin tədqiqində bitki qalıqlarının analizinin əhəmiyyətini vurğulayıb. Digər məruzəçi - Tarix fakültəsinin II kurs tələbəsi İsrayıl Xeyrullayev isə "Rəqəmsal arxeologiyaya giriş" mövzusunda təqdimatında elektron xəritələşdirmə, 3D modelləşdirmə və müasir texnologiyaların arxeoloji tədqiqatlarda tətbiqi imkanlarından bəhs edib.

# Tarix fakültəsində Xocalı soyqırımının qurbanları anılıb

***Azərbaycan xalqına, insanlığa və bəşəriyyətə qarşı ən dəhşətli cinayətlərdən olan Xocalı soyqırımından 34 il ötür.***

Son iki əsrdə erməni millətçiləri tarixi Azərbaycan torpaqları hesabına mifik "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə dəfələrlə xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə kimi bəşəri cinayətlər törədiblər. XX əsrin sonunda dünyanın gözü qarşısında baş verən, qəddarlığı və amansızlığı ilə fərqlənən Xocalı soyqırımı bu təcavüzkar siyasətin ən qanlı səhifəsidir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının dəstəyi ilə aylarla mühasirədə saxlanılan Xocalı şəhərinə hücuma keçərək onu yerlə-yeksan ediblər. Bu soyqırımı zamanı etnik mənsubiyyətlərinə - azərbaycanlı olduqlarına görə 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 487 nəfərə ağır bədən xəsarətləri yetirilib. Eyni zamanda, 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirib. Xain hücum nəticəsində 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb, onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

Xocalı qətliamı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti tərəfindən bütün zəruri addımlar atılır.

Bu istiqamətdə məqsədyönlü fəaliyyətə Ümummilli Lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanılıb. Faciəyə ilk dəfə hüquqi-siyasi qiymət də məhz Ulu Öndər Heydər Əliyev tərəfindən verilib. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul edib, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq, beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırıb.

Heydər Əliyev Fondu Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl fəaliyyət göstərir. Fondun dəstəyi və təşkilatçılığı ilə soyqırımla bağlı xüsusi layihə çərçivəsində dünyanın bir sıra ölkələrində aksiyalar, silsilə tədbirlər, sərgilər, anım mərasimləri keçirilir.

Fondun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə elan edilən "Xocalıya ədalət!" kampaniyasının səmərəsi isə ildən-ilə artır. Bu kampaniya çərçivəsində keçirilən tədbirlərdə məqsəd Xocalıdakı cinayətə hüquqi-siyasi qiymətin verilməsinə, bütün dünyanın Xocalı soyqırımını tanımasına nail olmaqdır.

Təsadüfi deyil ki, 2012-ci ilin yanvarında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının İndoneziyanın Palembanq şəhərində keçirilən VII sessiyasında 51 ölkənin parlament nümayəndələri Xocalı faciəsinin beynəlxalq səviyyədə soyqırımı kimi tanınması ilə bağlı müvafiq qətnamə qəbul edib.

"Xocalıya ədalət!" beynəlxalq informasiya kampaniyası hazırda dünyanın onlarla ölkəsində uğurla həyata keçirilir və faciənin mənəvi və siyasi-hüquqi səviyyədə tanınmasına yönəlib. Hazırda Pakistan, Meksika, Çexiya, Kolumbiya, Bosniya və Herseqovina və s. ölkələrin parlamentləri Xocalı faciəsini soyqırım və Azərbaycana qarşı cinayət aktı kimi tanıyıblar. Bundan əlavə, Xocalı soyqırımı ABŞ-ın onlarla ştatının qanunverici orqanı tərəfindən də tanınıb.

Prezident İlham Əliyev beynəlxalq səviyyədə keçirilən "Xocalıya ədalət!" kampaniyasının əhəmiyyətini nəzərə alaraq, "Xocalıya ədalət" kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında" 13 fevral 2014-cü il tarixli sərəncam imzalayıb.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Vətən müharibəsində şanlı Qələbəmiz və 2023-cü ildə ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa olunması ilə bu günə qədər Azərbaycan xalqına qarşı törədilmiş bütün vəhşiliklərin, soyqırımlarının qisası alındı, şəhidlərimizin qanı yerdə qalmadı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində üçrəngli bayrağımızı ucaltdı.

Xalq, dövlət olaraq qürurluyuq! Tarixi ədalətin bərpa olunduğu illəri yaşayırıq. Öz doğma yurdundan, dədə-baba torpaqlarından didərgin düşmüş xocalılılar evlərinə qayıdır, Xocalını yenidən gülüstana çevirirlər. Xocalı qatilləri Azərbaycanın ədalət məhkəməsi qarşısında cavab verirlər.

Yaşadığımız faciələri unutmuruq, unuda bilmərik! Çünki azad edilən ərazilərimizdə az qala hər gün aşkarlanan kütləvi məzarlıqlar bizi yaşadığımız faciələri unutmamağa, tariximizdən dərs almağa və gələcək nəsillərə çatdırmağa səsləyir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

# "Gənc istedadlar" liseyinin şagirdləri BDU-nun elmi-tədqiqat mühiti ilə tanış olurlar

*Fevralın 4-də BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin VII-VIII sinif şagirdlərinin Universitetin Fizika, Kimya və Biologiya fakültələrinin laboratoriyaları ilə yaxından tanışlığına başlanılıb.*



Erkən yaşlardan elmi mühitlə təmas şagirdlərin elmə maraqlarının artmasına, analitik və tədqiqat bacarıqlarının formalaşmasına, gələcək ixtisas seçimində düzgün istiqamətlənmələrinə mühüm töhfə verir.

Məşğələlər zamanı şagirdlər BDU-nun elmi-tədqiqat mühiti ilə tanış olublar. BDU-nun müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyalarında təşkil olunan dərs və praktik məşğələlər şagirdlərin fizika, kimya və biologiya fənləri üzrə əldə etdikləri nəzəri biliklərin praktik bacarıqlarla möhkəmləndirilməsinə şərait yaradır. Bu cür məşğələlər şagirdlərin dünyagörüşünün genişlənməsinə, biliklərinin dərinləşməsinə və elmə daha da yaxınlaşmalarına xidmət edir.

# BDU-da elmi seminar: "Quran dilinin özünəməxsus tərkibləri"

*Fevralın 11-də Şərqşünaslıq fakültəsində 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində "Quran dilinin özünəməxsus tərkibləri" mövzusunda elmi seminar keçirilib.*

Seminarda fakültənin Ərəb filologiyası kafedrasının professoru Nəsrulla Məmmədov məruzə edib. Professor Nəsrulla Məmmədov məruzəsində "Qurani-Kərim"ə qədər və bu müqəddəs kitabın nazil olmasından sonrakı ərəb dilini müqayisəli təhlil edib, onların arasında leksik-morfoloji və qrammatik fərqləri müəyyənləşdirib. O, Quran dilinə xas konstruksiyaların təkrarsız olduğunu vurğulayıb, ərəb ədibləri və şairləri tərəfindən bu tip ifadə və tərkiblərin eynilə yaradılmasının mümkünsüz olduğunu bildirib. Bu baxımdan məruzəçi Quran dilinin ərəb dili daxilində xüsusi mövqeyə malik olduğunu qeyd edib, ərəbşünaslıq elmi çərçivəsində bu istiqamətdə araşdırmaların genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb. Bildirilən fikirlər "Quran-Kərim"dən gətirilən ayələr əsasında əsaslandırılıb.

Seminarda çıxış edən Ərəb filologiyası kafedrasının müdiri Vüqar Qaradağlı və fakültənin elmi işlər üzrə dekan müavini Nigar İsmayılzadə məruzənin elmi əhəmiyyətini yüksək qiymətləndirib, mövzunun aktuallığını vurğulayıblar.

Sonda mövzu ilə bağlı müzakirələr aparılıb.

# BDU-da elmi seminar: "Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunmasında Azərbaycanın rolu"

*Fevralın 18-də Tarix fakültəsində "Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunmasında Azərbaycanın rolu" mövzusunda elmi seminar keçirilib.*



Qafqaz xalqları tarixi kafedrasının müdiri, professor İradə Hüseynova bildirib ki, Azərbaycanın sülh strategiyası regionda uzunmüddətli təhlükəsizlik, inkişaf və əməkdaşlıq üçün real zəmin formalaşdırır. O, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin olunmasında, Azərbaycanın regionun lider dövlətinə çevrilməsində Ulu Öndər Heydər Əliyev və onun layiqli davamçısı, Prezident İlham Əliyevin rolunu vurğulayıb.

Seminarda Qafqaz xalqları tarixi kafedrasının saathesabı müəllimi, tarix üzrə fəlsəfə doktoru, dosent Anar Eyyubov məruzə ilə çıxış edib. Məruzəçi qeyd edib ki, 1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycan mürəkkəb geosiyasi şəraitdə milli təhlükəsizlik strategiyasını formalaşdıraraq beynəlxalq hüquqa əsaslanan praqmatik siyasət yürüdüb. Bildirilib ki, Prezident İlham Əliyev ölkədə və regionda dayanıqlı sülhün və sabitliyin təmin olunmasını Azərbaycanın əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. Dövlət başçısı öz çıxışlarında dəfələrlə vurğulayıb ki, Cənubi Qafqaz qarşıdurma məkanı deyil, əməkdaşlıq və inkişaf regionuna çevrilməlidir. Onun sözlərinə görə, Azərbaycanın məqsədi bölgədə uzunmüddətli sülhün təmin olunması, kommunikasiyaların açılması, qarşılıqlı etimad mühitinin formalaşdırılması və təhlükəsizliyin bölünməzliyi prinsipinə əsaslanan əməkdaşlıq modelinin qurulmasıdır.

Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin hərbi potensialı modernləşdirilib, beynəlxalq tərəfdaşlıqlar genişləndirilib və regional təşəbbüslər irəli sürülüb. 2020-ci ildə Vətən müharibəsində ərazi bütövlüyünün və suverenliyin bərpası regionda yeni geosiyasi reallıq yaradıb və davamlı sülh üçün əsas formalaşdırıb.

Məruzədə vurğulanıb ki, hazırda Azərbaycan təhlükəsizlik və sülh siyasətini hərbi modernləşmə, beynəlxalq nəqliyyat və enerji layihələrinin genişləndirilməsi, türk dövlətləri ilə əməkdaşlığın dərinləşdirilməsi və Ermənistanla sülh prosesinin irəlilədilməsi istiqamətlərində ardıcıl şəkildə davam etdirir.

Elmi seminar müzakirələrlə davam edib.

# BDU məzunları üçün karyera inkişaf layihəsinə start verilib

*Fevralın 11-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin təşkilatçılığı ilə BDU-nun 2023–2025-ci illər məzunları üçün "Career frame" karyera inkişaf layihəsinə start verilib.*

Layihə çərçivəsində ilk təlim Karyera və məzunlarla iş Mərkəzinin karyera planlaşdırılması üzrə məsləhətçisi Pərvanə Babayeva tərəfindən həyata keçirilib. Açılış görüşü və təlim zamanı iştirakçılara karyera planlaması, CV və rezüme anlayışları, əmək bazarında uğurlu müraciət üçün əsas yanaşmalar, həmçinin işəgötürənlərin gözləntiləri barədə praktik və nəzəri məlumatlar təqdim olunub. İnteraktiv formatda təşkil olunan onlayn təlimdə müzakirələr aparılıb, praktiki tapşırıqlar icra olunub.

Layihənin məqsədi BDU məzunlarının əmək bazarına daha hazırlıqlı şəkildə çıxışını təmin etmək, onların karyera alətlərini gücləndirmək və peşəkar istiqamətdə düzgün yol xəritəsi formalaşdırmalarına dəstək olmaqdır. Layihə əsasən onlayn formatda keçirilir və mentorluq xidməti, praktiki təlimlər, şəbəkələşmə imkanlarını əhatə edir. Qeyd edək ki, keçirilmiş sorğular və müsahibə mərhələsinin nəticələrinə əsasən, 30 nəfər BDU məzunu layihədə iştirak hüququ qazanıb.

# BDU-da "Sülhməramlı azərbaycanlılar" mövzusunda elmi seminar

*Fevralın 19-da Tarix fakültəsində "Sülhməramlı azərbaycanlılar" mövzusunda elmi seminar keçirilib.*

Seminarda Azərbaycan tarixi kafedrasının müdiri, dosent Azad Rzayev məruzə ilə çıxış edib. Məruzəçi bildirib ki, Ermənistanın 30 illik təcavüzünə son qoyaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasında fəal iştirak edir. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sülh siyasəti və sülh gündəliyi barədə seminar iştirakçılarına ətraflı məlumat verib.

Qeyd olunub ki, dünyada silahlı qarşıdurmaların və siyasi gərginliklərin artdığı bir dövrdə sülhün təşviqi beynəlxalq gündəliyin əsas mövzularından biridir. Cənubi Qafqaz regionunda sülh və sabitliyin təmin edilməsi istiqamətində Azərbaycanın atdığı addımlar beynəlxalq ictimaiyyət tərəfindən diqqətlə izlənilir və praktiki nümunə kimi qiymətləndirilir.

Vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə regionda dayanıqlı sülhün təmin olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Münaqişədən sonrakı dövrdə humanitar təşəbbüslər irəli sürülür, azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, regional kommunikasiyaların açılması təşviq olunur və beynəlxalq təşkilatlarla əməkdaşlıq genişləndirilir. Bu addımlar bölgədə etimad mühitinin formalaşmasına və sabitliyin möhkəmlənməsinə xidmət edir.

Məruzədə bildirilib ki, Azərbaycan sülhməramlıları müxtəlif beynəlxalq missiyalarda ölkəni layiqincə təmsil edir, sülhün, qlobal təhlükəsizliyin təminatına töhfələr verir, beynəlxalq təhlükəsizlik təlimlərində öz bacarıqları və yüksək peşəkarlıqları ilə fərqlənirlər. Azərbaycan "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində Avropa və Avroatlantik məkanda qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasında NATO ilə birgə işləyir. Azərbaycan dövləti regionda yaratdığı yeni geostrateji və geosiyasi üstünlüklərdən faydalanaraq milli və dövlət maraqlarına cavab verən beynəlxalq hərbi əməkdaşlığı uğurla davam etdirir.

Elmi seminar müzakirələrlə davam edib.

# “İlin gənc alimi” müsabiqəsinin qalibi: Elm yolu çətin, lakin olduqca dəyərlidir - MÜSAHİBƏ

*Bakı Dövlət Universitetində 2 Fevral – Azərbaycan Gəncləri Gününə həsr olunmuş “İlin gənc alimi” müsabiqəsinin nəticələri açıqlanıb. Müsabiqə Komissiyasının qərarına əsasən, BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının elmi işçisi, Nanomaterialların kimyəvi fizikası kafedrasının doktorantı Məhəmməd Bağır Bağırov təbiət, dəqiq və texnika elmləri üzrə “İlin gənc alimi” adına layiq görülüb, diplom və pul mükafatı ilə təltif olunub.*

Məhəmməd Bağır Bağırov AZƏRTAC-a müsahibəsində bu mükafatın onun elmi fəaliyyətinə verdiyi töhfələrdən, gələcək tədqiqat planlarından və gənclər üçün yaradılan imkanlardan danışıb.

***-Bu mükafatın elmi fəaliyyətinizə təsirini necə qiymətləndirirsiniz?***

-Bu mükafat mənim üçün ilk növbədə böyük bir məsuliyyətdir. Əlbəttə, görülən işlərin qiymətləndirilməsi insanı sevindirir və motivasiya edir, eyni zamanda, gələcək fəaliyyətə daha ciddi yanaşmağı tələb edir. “İlin gənc alimi” adı mənim üçün yeni mərhələnin başlanğıcıdır və bu etimadı doğrultmaq üçün elmi fəaliyyətimi daha da intensivləşdirməyi qarşıma məqsəd qoymuşam.




***– Hansı elmi nailiyyətləriniz bu uğurun qazanılmasında həlledici rol oynadı?***

-Bu suala cavab vermək üçün konkret bir nailiyyəti demək çətindir. Çünki müsabiqəyə təqdim olunan fəaliyyətlərə ayrı-ayrılıqda deyil, bir bütöv elmi yol kimi baxmaq daha doğrudur. Dərc olunan elmi məqalələr, beynəlxalq konfrans materialları, qrant layihələri və aparılan tədqiqatların hər biri bu nəticənin əldə olunmasında xüsusi paya sahibdir. Hesab edirəm ki, bu uğur ardıcıl və sistemli elmi fəaliyyətin məntiqi nəticəsidir.

***– Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasında apardığınız tədqiqatların əsas istiqamətləri hansılardır?***

-Əsas tədqiqat istiqamətim nanomaterialların və nanokompozitlərin fiziki xassələrinə qamma şüalanmanın təsirinin öyrənilməsidir. Bununla yanaşı, elmi fəaliyyətim yalnız bu mövzu ilə məhdudlaşmır. Xüsusilə karbon əsaslı materialların enerji saxlama qurğularında tətbiq perspektivləri üzrə də tədqiqatlar aparıram ki, bu istiqamət hazırda materialşünaslıq sahəsində olduqca aktualdır. Laboratoriyada biz təkcə nəticə əldə edən tədqiqatçı deyil, eyni zamanda, fundamental elmi biliklərə malik, yaxşı mütəxəssis kimi formalaşmağa çalışırıq.

***– Gələcək elmi planlarınız nədən ibarətdir? Yeni layihələr üzərində işləyirsinizmi?***

-Yaxın gələcək üçün əsas planım fizika üzrə fəlsəfə doktorluğu dissertasiyamı uğurla müdafiə etməkdir. Bununla yanaşı, həm fundamental, həm də sənayeyönümlü tətbiqlərə əsaslanan elmi layihələr üzərində işləməyi planlaşdırıram. Xarici laboratoriyalarla birgə tədqiqatların genişləndirilməsi, beynəlxalq layihələrin hazırlanması və tətbiqiyönümlü elmi nəticələrin əldə olunması əsas hədəflərim sırasındadır.

***– Beynəlxalq elmi əməkdaşlıq baxımından hansı hədəfləriniz var?***

-Hazırda laboratoriyamızın əməkdaşları Türkiyə, Özbəkistan, İtaliya, Sloveniya, Cənubi Koreya və digər ölkələrin nüfuzlu universitetləri və tədqiqat mərkəzləri ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində elmi təcrübə mübadiləsi aparılır və birgə beynəlxalq layihələr hazırlanır. Qeyd edim ki, elmi fəaliyyətim dövründə bir sıra xarici laboratoriyalarda olmuş, müxtəlif ölkələrdən olan professor və tədqiqatçılarla elmi müzakirələr aparmışam. Bu görüşlər mənim elmi problemlərə baxışımı, yanaşma tərzimi müsbət mənada dəyişib. Gələcəkdə bu beynəlxalq əlaqələrin daha da genişlənməsi əsas hədəflərimdəndir.

***– Azərbaycan gənclərinin elmə marağını artırmaq üçün hansı addımların atılmasını vacib hesab edirsiniz?***

-Düşünürəm ki, gənclərə elmin qısa yol olmadığını düzgün izah etmək olduqca vacibdir. Elm səbir, davamlılıq və zəhmət tələb edir. Erkən mərhələdən laboratoriya mühiti ilə tanışlıq, düzgün mentorluq və real elmi nümunələrin göstərilməsi gənclərin elmə marağını artıran əsas amillərdəndir. Bununla yanaşı, elmi istiqamətdə inkişaf edən gənclər üçün məişət məsələlərində, xüsusilə yaşayış yerləri ilə bağlı müəyyən imtiyazların yaradılması onların elmi fəaliyyətə daha rahat fokuslanmasına kömək edə bilər.

***–Gənc tədqiqatçılara və elm yolunu seçmək istəyən tələbələrə nə demək istərdiniz?***

-Elm yolunu seçən hər kəs bilməlidir ki, bu yol çətin, lakin olduqca dəyərlidir. Əsas məsələ istiqaməti düzgün seçmək, səbirli olmaq və daim öz üzərində işləməkdir. Bununla yanaşı, bir elm işçisi üçün ən vacib xüsusiyyətlərdən biri xəyal etməyi bacarmaqdır. Gənclərə tövsiyəm odur ki, hədəfləri böyük olsun, qarşılarında geniş inkişaf yolları görsünlər və bu yolda irəliləyə biləcəklərinə özlərini inandırsınlar.

# BDU-nun tələbələri təltif olunublar



***Fevralın 1-də BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev Universitetin ictimai həyatında fəal iştirak edən gənclər təşkilatlarının üzvləri və tədris göstəricilərinə görə fərqlənən tələbələrlə görüşüb.***

Əliş Ağamirzəyev 2025-ci ilin BDU-nun həyatında əlamətdar hadisələrlə yadda qaldığını və Universitetdəki tələbə təşkilatlarının daha da aktiv fəaliyyət göstərdiyini qeyd edib. Bildirib ki, 2020-ci ildə ali məktəblər arasında ilk dəfə BDU-da Humanitar məsələlər və gənclər siyasəti şöbəsi yaradılıb. Şöbənin əsas fəaliyyəti dövlət gənclər siyasətinin icrası, gənclər təşkilatlarının sistemli idarəsi və davamlı inkişafına əsaslanıb. Hazırda BDU-da Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi və “BDU könüllüləri” təşkilatı minlərlə tələbənin inkişafı istiqamətində uğurlu layihələr icra edir. Bununla bərabər, BDU tələbələri ölkə miqyaslı tədbirlərdə də böyük fəallıq nümayiş etdirirlər.

Bu ilin ölkəmizdə Prezident İlham Əliyev tərəfindən “Şəhərsalma və Memarlıq İli” elan edildiyini deyən prorektor Əliş Ağamirzəyev tələbələri bu istiqamətdə fəal olmağa çağırıb. Fərdi təşəbbüs və layihələrin onların özünüifadə və innovativ düşüncə qabiliyyətlərinin inkişafına təkan verəcəyini qeyd edib: “Şəhərsalmada urbanizasiyanın rolu və süni intellektin müasir şəhərlərdə tətbiqi bu gün aktualdır. Gənclərin belə təşəbbüslər ilə çıxış etməsinə biz hər zaman dəstək olmağa hazırıq. Ümummilli Lider Heydər Əliyevin məzunu olması ilə fəxr etdiyi BDU-nun tələbələri hər zaman savadlı, vətənpərvər olmalıdır. Biz buna əminik”.

Daha sonra Universitetin ictimai həyatında fəal iştirak edən gənclər təşkilatlarının üzvləri və tədris göstəricilərinə görə fərqlənən tələbələr təltif ediliblər.

# BDU THİK-in fəal üzvləri təltif olunublar

***Fevralın 2-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) fəallığı ilə seçilən və müxtəlif istiqamətlər üzrə fərqlənən üzvləri təltif olunublar.***

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov ölkəmizdə gənclər siyasətinin təməl prinsiplərinin 29 il öncə Ümummilli Lider Heydər Əliyev tərəfindən Azərbaycan Gənclərinin I Forumunda formalaşdırıldığını qeyd edib. Bildirib ki, bu siyasətin nəticəsi olaraq gənclər bu gün cəmiyyətin hərəkətverici qüvvəsinə çevrilib. BDU tələbələri də ölkəmizin ictimai-sosial həyatındakı aktiv iştirakları ilə bu siyasətin ayrılmaz parçasına çevriliblər.

BDU THİK-in sədri Zöhrab Cavadzadə təltif olunan tələbələri təbrik edib, BDU-nun əsas tələbə təşkilatlarından biri olan THİK-in Universitetin ictimai həyatında mühüm rol oynadığını və təşkilatın üzvlərinin daim fəallıqları ilə seçildiklərini deyib. Zöhrab Cavadzadə tələbələrin sosial rifahının qorunması, onların təşəbbüslərinin dəstəklənməsi və asudə vaxtlarının səmərəli təşkili istiqamətində THİK tərəfindən həyata keçirilən layihələrdən də söz açıb.

Daha sonra BDU THİK-in fakültə, departament və klub sədrlərinə, eləcə də idarə heyətinin fəal üzvlərinə təşəkkürnamələr təqdim olunub.

# BDU TGT-nin nümayəndələri mükafatlandırılıb

***Fevralın 2-də Bakı Dövlət Universitetinin Tələbə Gənclər Təşkilatının (TGT) nümayəndələri Azərbaycan Gənclər Fondunun dəstəyi və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) təşkilatçılığı ilə keçirilən Tələbə Gənclər Təşkilatlarının mükafatlandırma mərasimində təltif olunublar.***

Mərasimdə BDU TGT-nin sədri Harun Mehdiyev “İlin TGT sədri” nominasiyası, təşkilatın sədr müavini Nihat Allahverdiyev isə “İlin TGT nümayəndəsi” nominasiyası üzrə mükafatlandırılıb.

Tələbələrimizi təbrik edir, fəaliyyətlərində uğurlar arzulayırıq!

# BDU-nun 2 tələbəsi “AzerGold”un 5-ci təqaüd proqramının qalibidir

***Fevralın 19-da Geologiya fakültəsinin IV kurs tələbələri Nərmin Əsədullayeva və Bəxtiyar Qənbərli “AzerGold” QSC tərəfindən ölkənin ali təhsil müəssisələrinin tələbələri üçün elan edilən 5-ci təqaüd proqramının qalibi olublar. Bu uğur tələbələrin yüksək akademik göstəricilərinin, ixtisas biliklərinin və peşəkar inkişaf potensiallarının qiymətləndirilməsi nəticəsində əldə olunub.***






“AzerGold” QSC tərəfindən 2021-ci ildən etibarən ali və peşə təhsili istiqamətləri üzrə həyata keçirilən təqaüd proqramı sosial məsuliyyət və insan kapitalının inkişafı siyasətinin mühüm tərkib hissəsidir. Proqram çərçivəsində bu günədək ali təhsil səviyyələri üzrə 28, peşə təhsili müəssisələrində isə 35 tələbə təqaüdə layiq görülüb. 2025-2026-cı tədris ili üzrə ali təhsil müəssisələrindən “Geologiya”, “Dağ-mədən mühəndisliyi”, “Ekologiya”, “Metallurgiya” ixtisasları üzrə təhsil alan 9, peşə təhsili müəssisələrindən isə 15 tələbə “AzerGold” təqaüdünün qalibi olub. Müsabiqənin nəticələrinə əsasən, qaliblərin hər biri təltifnamə ilə yanaşı, 9 ay müddətində hər ay 200 AZN məbləğində təqaüd alacaqlar. Təqaüd proqramının əsas məqsədi geologiya və dağ-mədən sahələri üzrə ixtisaslaşan gənc mütəxəssislərin maddi dəstəklənməsi, onların peşə bacarıqlarının inkişaf etdirilməsi və gələcək karyera imkanlarının genişləndirilməsidir.

Proqram çərçivəsində iştirakçılara “AzerGold” QSC-də təcrübə proqramlarında iştirak imkanı yaradılacaq. Məzun olduqdan sonra onların uyğun vakansiyalar üzrə işlə təmin edilməsi nəzərdə tutulur.

# BDU tələbələri arxeobotanika və rəqəmsal arxeologiyaya dair təqdimat ediblər

***Fevralın 20-də Tarix fakültəsində Tələbə Elmi Cəmiyyətinin nəzdində fəaliyyət göstərən “Gənc arxeoloq” dərnəyinin təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında “Elm gününə həsr olunmuş “Arxeologiyada multidisiplinar tədqiqatlar” mövzusunda elmi tədbir keçirilib.***



Arxeologiya və etnoqrafiya kafedrasının müdiri, dərnəyin qurucusu, dosent Tarix Dostiyev arxeologiyanın müasir elmlərlə inteqrasiyasının vacibliyini vurğulayıb. Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının dosenti Məmmədağa Baxışov multidisiplinar yanaşmaların gənc tədqiqatçıların elmi fəaliyyətində və gələcək araşdırmalarında mühüm rol oynadığını qeyd edib.

Elmi tədbirdə Tarix fakültəsinin II kurs tələbəsi Maral Əlizadə “Arxeobotanika” mövzusunda məruzə edib. O, qədim yaşayış məskənlərinin tədqiqində bitki qalıqlarının analizinin əhəmiyyətini vurğulayaraq, bu sahənin tarixşünaslıq və arxeologiya üçün yeni məlumat mənbələri yaratdığını diqqətə çatdırıb. Digər məruzəçi - Tarix fakültəsinin II kurs tələbəsi İsrayıl Xeyrullayev isə “Rəqəmsal arxeologiyaya giriş” mövzusunda təqdimatında elektron xəritələşdirmə, 3D modelləşdirmə və müasir texnologiyaların arxeoloji tədqiqatlarda tətbiqi imkanlarından bəhs edib.

Tədbirin sonunda iştirakçılar arasında geniş müzakirələr aparılıb, multidisiplinar yanaşmanın arxeologiya elminin inkişafında mühüm əhəmiyyət daşıdığı xüsusi vurğulanıb.

# BDU-da elmi seminar: “Radioaktiv maddələr və radioaktiv çirklənmə problemləri”

***Fevralın 17-də Kimya fakültəsində 27 mart – Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş tədbirlər çərçivəsində “Radioaktiv maddələr və radioaktiv çirklənmə problemləri” mövzusunda elmi seminar keçirilib.***

Seminarda Ümumi və qeyri-üzvi kimya kafedrasının professoru Nağı Yaqubov mövzu ilə bağlı məruzə edib. Bildirib ki, müasir dünyanın əsas ekoloji problemlərindən biri radioaktiv çirklənmədir. Yer kürəsində radiasiya fonunu artıran amillər sırasında Günəşin ultrabənövşəyi şüaları, neftlə birlikdə çıxan buruq sularında olan radioaktiv xassəli ağır metal zərrəcikləri, palçıq vulkanları ilə birlikdə çıxan radioaktiv maddələr və kosmik şüalar xüsusi rol oynayır.

Yer kürəsində radiasiya fonunu artıran radioaktiv çirklənmə ilə yanaşı, Günəşin ultrabənövşəyi şüaları, neftlə birlikdə çıxan buruq sularında olan radioaktiv xassəli ağır metal zərrəcikləri, palçıq vulkanı ilə birlikdə çıxan radiaktiv maddələr və kosmik şüalardır. Radioaktiv maddələrin saflaşdırılması, Atom Elektrik Stansiyalarında baş verən qəzalar və mümkün sızmalar, son illərdə palçıq vulkanları və digər vulkanların aktivliyinin artması, neft sənayesində hasilatın genişlənməsi və yeni yataqların istismara verilməsi, eləcə də Günəşdə baş verən güclü partlayışlar və tac kütlə atılmaları nəticəsində kosmik radiasiyanın intensivləşməsi ümumi radiasiya fonuna təsir göstərir. Bu baxımdan radiasiya təhlükəsizliyinin təmin olunması, ətraf mühitin radioloji monitorinqinin mütəmadi aparılması, texnogen və təbii mənbələrdən yayılan ionlaşdırıcı şüalanmanın səviyyəsinin normativ hədlər çərçivəsində saxlanılması və əhalinin sağlamlığının qorunması məsələsi dövlətin ekoloji, milli təhlükəsizlik prioritetləri sırasındadır.

Professor qeyd edib ki, radiasiya fonunun artması həm təbii, həm də texnogen amillərlə bağlı kompleks problemdir. Bu səbəbdən çıxış yolu yalnız bir istiqamətdə deyil, monitorinq, texnoloji təhlükəsizlik, qanunvericilik, elmi-tədqiqat və ictimai maarifləndirmənin inteqrasiyası ilə mümkündür.

Sonda məruzəçi sualları cavablandırıb.

# Fizika fakültəsində “Elm günü”nə həsr olunmuş elmi seminar

***Fevralın 23-də Fizika fakültəsində Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə 27 mart - Azərbaycan Respublikasında “Elm günü”nə həsr edilmiş elmi seminar keçirilib.***

Fakültənin III kurs tələbəsi Zeynəb Məmmədzadə “Kvant ölçü effektləri” mövzusunda məruzə edərək kvant-ölçü effektinin mahiyyəti və təsiri haqqında məlumat verib. O, kosmik şüaların Yer atmosferinə daxil olması nəticəsində zərrəciklərin yaranması və bu prosesin Yer səthinə çatan radiasiyaya təsiri məsələlərinə toxunub.

Fakültənin II kurs tələbəsi Aynur Həsənova isə “Kosmik şüalar və Yerin müdafiəsi” mövzusunda çıxış edib. Məruzədə kosmik şüaların atmosferdə yaratdığı proseslər və Yerin təbii qoruyucu mexanizmlərinin bu şüalara qarşı rolu izah olunub.

Tədbir kvant fizikası və kosmik radiasiya sahələrində maraqlı elmi müzakirələrlə yadda qalıb, sonda iştirakçıların sualları cavablandırılıb.

Seminarın sonunda Fizika fakültəsinin dekanı, professor Bəxtiyar Paşayev məruzəçilərin çıxışlarını yüksək qiymətləndirib və onlara gələcək elmi fəaliyyətlərində uğurlar arzulayıb.

# BDU tələbəsi “Azad Mirzəcanzadə inkişaf proqramı”nın qalibi olub




***Fevralın 23-də Ekologiya və torpaqşünaslıq fakültəsinin IV kurs tələbəsi, Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin əməkdaşı Nicat Həsənovun “EcoBin” layihəsi “Azad Mirzəcanzadə inkişaf proqramı”nın qalibi olub.***

Azad Mirzəcanzadə inkişaf proqramının üçüncü dalğasına ölkənin müxtəlif ali təhsil müəssisələrindən və regionlardan çoxsaylı layihələr təqdim olunub. Çoxmərhələli seçim prosesi nəticəsində final mərhələsinə 60-dan çox iştirakçı və layihə vəsiqə qazanıb. Yekun qiymətləndirmə əsasında 10 layihə qalib elan olunaraq maliyyə dəstəyi əldə edib.

Müsabiqəyə təqdim olunan “EcoBin” layihəsi üzvi tullantıları Günəş enerjisi və mikroorqanizmlər vasitəsilə sürətli komposta çevirən, eyni zamanda süni intellekt və IoT sensorları ilə torpaq və su resurslarını idarə edən innovativ kənd təsərrüfatı sistemidir. Layihə kimyəvi gübrə istifadəsini azaltmaq, su ehtiyatlarına qənaət etmək və fermerlər üçün məhsuldarlığı artırmaq məqsədi daşıyır.

Qeyd edək ki, 2023-cü ilin sentyabr ayında elan edilmiş “Azad Mirzəcanzadə inkişaf proqramı”na sosial, ekoloji, maarifləndirici və innovativ istiqamətlər üzrə layihələr təqdim olunur. Seçilmiş layihələr ekspert qiymətləndirilməsindən keçərək qalib olur və maliyyə dəstəyi ilə həyata keçirilmə imkanı qazanır.

# BDU-da müasir Azərbaycan ədəbiyyatının əsas tendensiyaları müzakirə olunub

***Fevralın 23-də Filologiya fakültəsinin təşkilatçılığı ilə 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində "Müasir Azərbaycan ədəbiyyatı və tənqidində əsas tendensiyalar" mövzusunda ustad dərsi keçirilib.***

Tədbirdə Milli Məclisin deputatı, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Elnarə Akimova məruzə ilə çıxış edib.



Məruzəçi ədəbiyyatın ideoloji və estetik xüsusiyyətlərindən asılı olmayaraq hər bir fərdi mətnin müstəqil estetik dəyər daşıdığını vurğulayıb. O qeyd edib ki, XX əsrin 80-ci illərindən başlayaraq Azərbaycan ədəbiyyatında yeni bədii meyllər formalaşmağa başlayıb, keçid dövrünün mürəkkəb ictimai-siyasi reallıqları isə bu prosesə həm tematik, həm də estetik baxımdan ciddi təsir göstərib. Məruzəçinin sözlərinə görə, 1990-cı illərin sonu - 2000-ci illərin əvvəllərində milli ədəbiyyat müstəqillik ideyasını bədii düşüncə və poetik sistem səviyyəsində ifadə etməyə başlayıb.

Elnarə Akimova bildirib ki, bu mərhələdə türkçülük ideyalarının güclənməsi milli kimlik və mədəni yaddaşın ədəbi mətndə yeni semantik qatlar qazanmasına şərait yaradıb. O vurğulayıb ki, müstəqillik dövrü ədəbiyyatı milli və qlobal bədii düşüncənin qarşılıqlı təsiri fonunda formalaşır. Bu baxımdan postmodernizm cərəyanının ədəbi prosesə daxil olması diqqətçəkən məqamlardandır. Məruzədə postmodernizmin qlobal miqyasda mədəni və mənəvi böhranların məhsulu olduğu, klassik mətn strukturlarını yenidən düşünməyə və mətnlərarası münasibətləri ön plana çıxarmağa yönəldiyi qeyd olunub.

Məruzəçi sovet ideoloji sistemi dövründə Azərbaycan ədəbiyyatının bir sıra dünya ədəbi mərhələlərindən kənarda qaldığını xatırladaraq, müstəqillik illərində bu estetik boşluqların müxtəlif istiqamətlərdə doldurulduğunu bildirib. Bu proses fonunda bəzi əsərlərdə milli-mənəvi dəyərlərlə ziddiyyət təşkil edən yanaşmaların meydana çıxdığı, dini və metafizik anlayışlara münasibətdə yeni interpretasiyaların formalaşdığı diqqətə çatdırılıb.

Çıxışda həmçinin müasir Azərbaycan ədəbiyyatında özgələşmə probleminin aktuallaşdığı vurğulanıb. Qeyd olunub ki, bu tendensiya təkcə insanın cəmiyyətə deyil, eyni zamanda öz daxili aləminə və mənəvi dəyərlərə münasibətində də özünü göstərir və müasir bədii düşüncənin əsas istiqamətlərindən biri kimi ədəbi mətnlərdə müxtəlif formalarda əks olunur.

Sonda mövzu ətrafında iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# BDU-nun müəllimi Bayburt Universitetində Türkiyə-Azərbaycan əməkdaşlığına dair müzakirələrdə iştirak edib



***Fevralın 23-də BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müəllimi, Milli Məclisin üzvü Naqif Həmzəyev Türkiyənin Bayburt Universitetində Türkiyə ilə Azərbaycan arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı keçirilən panel müzakirələrdə məruzə edib.***

İki panel iclas üzrə təşkil olunan tədbirdə çıxış edən BDU-nun müəllimi Naqif Həmzəyev məruzəsində əsrlərə dayanan Türkiyə-Azərbaycan münasibətlərinin hazırda zirvəsini yaşadığını, qardaşlıqdan doğan birgə əməkdaşlıq mühitinin bütün dünyaya nümunə, türk dövlətləri üçün isə inam nöqtəsi olduğunu qeyd edib: "Azərbaycan və Türkiyə arasındakı münasibətlər iki ölkənin ortaq tarixindən, mədəniyyətindən və dilindən qaynaqlanaraq beynəlxalq səviyyədə güclü strateji əməkdaşlığa çevrilib. Türk dünyası daxilində ölkələrimiz arasında artan əməkdaşlıq yalnız iki dövlətin deyil, bütün Türk dünyasının birliyini və inkişafını dəstəkləyir. Azərbaycan və Türkiyə "Bir millət, iki dövlət" prinsipi ilə dünyaya örnək olan, qardaşlıq ruhunu əks etdirən, qədim tarixə, dərin köklərə malik ölkələrdir. Bu qardaşlıq münasibətləri iki ölkənin mədəni, tarixi və dil əlaqələrinə əsaslanır. Həmçinin Azərbaycan və Türkiyə geosiyasi baxımdan strateji tərəfdaşlar olaraq, regional və qlobal səviyyədə mühüm əhəmiyyət kəsb edirlər. Bu əlaqələr Türk dünyası çərçivəsində birliyin və əməkdaşlığın təmin edilməsi istiqamətində bir model kimi çıxış edir".

Tədbir birgə əməkdaşlıq modeli çərçivəsində görülə biləcək işlərə dair müzakirələrlə öz işini davam etdirib.

# "ARB24"ün icraçı direktoru BDU tələbələrinə ustad dərsi keçib



***Fevralın 25-də Jurnalistika fakültəsində 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr edilmiş ustad dərsi keçirilib. Ustad dərsini "ARB 24" telekanalının direktoru Radik İsmayılov deyib.***

Radik İsmayılov süni intellektin xəbər jurnalistikasına təsirlərindən danışıb. Bildirib ki, süni intellekt vasitəsilə məzmun hazırlanması təhlükəli proses deyil, əksinə, bunun səmərəli istifadə yollarını tapmaq lazımdır. Süni intellektin media sahəsində yaratdığı imkanlar və potensial risklərin müzakirə olunduğu ustad dərsində Radik İsmayılov bildirib ki, süni intellektdən istifadə ilə bağlı gələcəkdə yazının müəllifliyi baxımından problemlər yarana bilər. Süni intellekt xəbər jurnalistikası üçün yeni perspektivlər açır. Xüsusilə faktların toplanılması və qrafik təsvirlərin hazırlanması baxımından çox əlverişlidir.

"ARB 24" telekanalının direktoru qeyd edib ki, xüsusilə portret müsahibə və reportajların hazırlanmasında süni intellektdən istifadə etmək mümkündür: "Süni intellektin xəbər jurnalistikasında köməkçi alət kimi istifadəsinin mümkünlüyü önə çəkilsə də, faktların dəqiqləşdirilməsi və redaksiya nəzarəti vacibdir. Bunun üçün də gənc jurnalistlər yeni dövrün tələbləri ilə ayaqlaşmalı, amma ənənəvi jurnalistikamızın tələblərini də unutmamalıdırlar".

Sonda tələbələrin mövzu ilə bağlı sualları cavablandırılıb.

# BDU-da "Gənclər və dövlət idarəçiliyi" mövzusunda panel müzakirə

***Fevralın 23-də "BDU könüllüləri" təşkilatının Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi üzrə üzvlərinin təşəbbüsü ilə "Gənclər və dövlət idarəçiliyi" mövzusunda panel müzakirə keçirilib.***

"BDU könüllüləri" təşkilatının Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi üzrə sədri İsmayıl İbrahimov gənclərin dövlət idarəçiliyi və siyasi idarəetmə sistemlərində yaxından iştirakının və məhz gənc yaşlarından bu istiqamətdə məlumatlılığının artırılmasının vacib olduğunu, keçirilən panel müzakirənin də bu məqsədə xidmət etdiyini qeyd edib.

Milli Məclisin üzvü, BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müəllimi Naqif Həmzəyev dövlət idarəçiliyində gənclərin iştirakının institusional əsaslarından söz açıb, bunun gənclər siyasətinin milli inkişaf strategiyasının mühüm tərkib hissəsi olduğunu bildirib. O, qanunvericilik müstəvisində gənclərin hüquq və imkanlarının genişləndirilməsinin dövlətin prioritet istiqamətlərindən biri olduğunu deyib.

Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev YAP-ın daxilində gənclərin fəallığının artırılması istiqamətində həyata keçirilən tədbirlər barəsində məlumat verib. Qeyd edib ki, partiyanın gənclər siyasəti gənclərin təşəbbüslərinin dəstəklənməsi, onların idarəetmə proseslərinə cəlb olunması və liderlik keyfiyyətlərinin formalaşdırılmasını hədəfləyir.

Gənclər və İdman Nazirliyinin Vətənpərvərlik tərbiyəsi sektorunun baş məsləhətçisi, Prezident mükafatçısı, Vətən müharibəsi iştirakçısı Coşqun Hidayətov gənclərin dövlət idarəçiliyində iştirakında vətənpərvərlik tərbiyəsinin rolundan danışıb. Gənclərin dövlətə bağlılıq ruhunda formalaşdırılması və ictimai proseslərdə aktiv mövqe sərgiləməsinin dayanıqlı inkişafın əsas şərtlərindən olduğunu vurğulayıb.

# BDU-da elmi ədəbiyyatın redaktəsinə dair debat

***Fevralın 27-də İnformasiya və sənəd menecmenti fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr edilmiş silsilə tədbirlər çərçivəsində "Elmi ədəbiyyatın redaktəsi" mövzusunda debat keçirilib.***

Debatın moderatoru, BDU-nun Redaksiya-nəşriyyat işi kafedrasının müdiri, dosent Knyaz Aslan bildirib ki, elmi ədəbiyyatın redaktəsi mətnin elmi standartlara cavab verməsi, məntiqi ardıcıllığın təmin edilməsi və dil qüsurlarının aradan qaldırılması prosesidir. Bu proses həm məzmunun dürüstlüyünü, həm də texniki tərtibatın beynəlxalq tələblərə uyğunluğunu təmin edir.

Debatda bakalavr və magistratura səviyyələrində təhsil alan tələbələrdən ibarət iki komanda formalaşdırılıb. Komandalardan biri onlara təqdim olunmuş müxtəlif elm sahələrinə dair mətnlər haqqında fikir söyləyərək terminlər, faktlar, statistik göstəricilər, dil standartları ilə bağlı öz arqumentlərini əsaslandırıblar. Digər komandanın üzvləri isə onların mülahizələrini geniş şəkildə müzakirə ediblər.

Sonda dosent Knyaz Aslan tələbələrin suallarını cavablandırıb, cavablarını qiymətləndirib, bu kimi debatların tələbələrin tənqidi təfəkkürünün və elmi yazılarla işləmək bacarıqlarının inkişaf etdirilməsində xüsusi rol oynadığını qeyd edib.

# BDU tələbələri və özbəkistanlı doktorantların iştirakı ilə elmi-praktiki təcrübə proqramı təşkil olunub

*Fevralın 23-də Biologiya fakültəsinin təşəbbüsü ilə Özbəkistanın Buxara Tibb Universitetindən təcrübə keçmək üçün gəlmiş doktorantların, fakültənin magistrant və "Biotexnologiya" ixtisası üzrə təhsil alan I kurs tələbələrinin iştirakı ilə elmi-praktiki təcrübə proqramı təşkil olunub. Proqramın məqsədi iştirakçıların müasir laborator texnologiyaları, tətbiqi analiz metodları və aktual tədqiqat istiqamətləri ilə birbaşa tanışlığını təmin etmək olub.*



Təcrübə proqramı çərçivəsində iştirakçılar BDU-nun Biologiya fakültəsinin ixtisaslaşmış laboratoriyalarında aparılan elmi-tədqiqat işləri ilə tanış olublar. Molekulyar biologiya, biokimya, genetik analiz və bitki biotexnologiyası istiqamətləri üzrə icra olunan layihələr barədə məlumat verilib, laborator avadanlıqların iş prinsipi, nümunələrin hazırlanması mərhələləri və analiz nəticələrinin interpretasiyası praktiki şəkildə izah edilib. Bu mərhələ tələbələrin nəzəri biliklərinin praktik mühitdə möhkəmləndirilməsi baxımından əhəmiyyətli olub.

Proqram çərçivəsində iştirakçılar Molekulyar biologiya və biotexnologiyalar kafedrasının müəllimi, dosent Roza Məmmədovanın rəhbərliyi ilə Azərbaycan Tibb Universitetinin Biokimya kafedrasında və klinik laboratoriyalarında olublar. Burada klinik laborator diaqnostikanın təşkili, molekulyar-bioloji metodların tibbdə tətbiqi və tam avtomatlaşdırılmış analiz sistemləri barədə təqdimat keçirilib. Klinik-Diaqnostik Laboratoriyada nümunələrin barkod sistemi ilə identifikasiyası və yüksək məhsuldarlıqlı analiz prosesi nümayiş etdirilib.

Təcrübə proqramı Əkinçilik Elmi-Tədqiqat İnstitutunda davam etdirilib. İnstitutda aparılan aqrar-bioloji tədqiqat istiqamətləri və laborator analiz metodları haqqında məlumat verilib. Təcrübə çərçivəsində QIAGEN şirkətinin elm və İnnovasiya üzrə direktoru İsmail Hakkı Taş tərəfindən "Glacial Advance" kapilyar elektroforez sistemi üzrə praktiki təlim keçirilib, cihazın iş prinsipi və nəticələrin analizi izah olunub.

Proqram real laborator mühitdə bilik və bacarıqların inkişafına, beynəlxalq elmi əməkdaşlığın genişlənməsinə və gələcək birgə tədqiqatların formalaşmasına töhfə verir.

# BDU-nun Elmi Kitabxanasına Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən kitablar hədiyyə olunub

*Fevralın 25-də BDU-nun Elmi Kitabxanasına Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən 39 adda kitab hədiyyə olunub.*




Hədiyyə olunan kitablar sırasında türk dünyasının zəngin ədəbi və tarixi irsini əks etdirən əsərlər – Mahmud Kaşğarinin "Divani lüğət-it-türk", Nizami Gəncəvi və Məhəmməd Füzulinin yaradıcılığına dair nəşrlər, eləcə də Ulu Öndər Heydər Əliyev və Mir Cəlal Paşayevin həyat və fəaliyyətinə dair kitablar, Qarabağın tarixi-mədəni irsinə dair tədqiqatlar, türk xalqlarının eposları, poeziya antologiyaları və müxtəlif elmi əsərlər yer alır. Son beş ildə çap olunan bu nəşrlər müasir dövrün aktual elmi və ədəbi nümunələri kimi kitabxana fondunun zənginləşdirilməsinə mühüm töhfə verəcək.

# BDU-da Konstitusiyanın hüquqi mühafizəsinə dair elmi seminar keçirilib

*Fevralın 26-da Hüquq fakültəsinin təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş "Konstitusiyanın hüquqi mühafizəsində iştirak edən subyektlərin dairəsi" mövzusunda elmi seminar keçirilib.*

Seminarda Hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent Nəsib Şükürov məruzə ilə çıxış edib. Məruzədə Konstitusiyanın siyasi-hüquqi cəmiyyət üçün tənzimləyici və məhdudlaşdırıcı funksiyası vurğulanıb, Konstitusiyanın yaranmasının xalqın iradəsi və cəmiyyətdə mövcud ictimai münasibətlərin hüquqi normaya çevrilməsi ilə bağlı olduğu qeyd edilib.

Çıxışçı bildirib ki, Konstitusiyanın hüquqi mühafizəsi ictimai münasibətlərin qorunması üçün səmərəli mexanizmlərin formalaşdırılması ilə birbaşa əlaqədardır. Bu baxımdan Konstitusiyanın özündə həmin münasibətlərin qorunmasını təmin edən mexanizmlərin mövcudluğu mühüm əhəmiyyət kəsb edir.

Çıxışda Konstitusiyanın sabitliyi və effektiv fəaliyyəti məsələlərinə də toxunulub. Dünya təcrübəsinə istinad edən məruzəçi qeyd edib ki, Konstitusiyanın mühafizəsi təkcə onun mətnində nəzərdə tutulan normalarla məhdudlaşmır, eyni zamanda institusional mühafizə sisteminin formalaşdırılmasını da tələb edir. Bu sistemə konstitusiya nəzarəti orqanları, məhkəmələr, qanunverici və icra hakimiyyəti subyektləri, eləcə də vətəndaş cəmiyyəti institutları daxildir.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb.

# BDU-da elmi seminar: "Davranışın təkamülü – instinkt, yoxsa stereotip?"

*Fevralın 26-da Biologiya fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə 27 mart - Azərbaycan Respublikasında "Elm günü"nə həsr edilmiş "Davranışın təkamülü – instinkt, yoxsa stereotip?" mövzusunda elmi seminar keçirilib.*

BDU-nun Zoologiya və fiziologiya kafedrasının müəllimi, dosent Sevinc Hümbətova məruzəsində davranışın təkamülünün əhəmiyyəti və onun canlının reaksiyalarının formalaşmasındakı rolundan danışıb. Bildirib ki, davranışın təkamülü əsasən iki aspektə - anadangəlmə və qazanılmış davranış elementlərinə əsaslanaraq tədqiq edilir. Hər iki aspekt canlının reaksiyalarının formalaşmasında əhəmiyyətlidir. İbtidaidən aliyə doğru mürəkkəbləşən bütün sistemlər kimi canlıların davranış elementləri də ali siniflərə doğru rasional düşüncə ilə ölçülür. Bu baxımdan instinktiv və stereotipik davranışın ali onurğalılara aid qismində onların sosail davranışını öyrənmədən birmənalı qənaətə gəlmək doğru deyil.

Biologiya fakültəsinin TEC sədri Rasim Abbaszadə tələbələrin elmə marağının artırılması istiqamətində keçirilən belə seminarların silsilə xarakter daşıdığını bildirib, tələbələri belə fəaliyyətlərdə aktiv olmağa çağırıb. Elmi seminar tələbələrin suallarının cavablandırılması ilə başa çatıb.

# Dövlət Məşğulluq Agentliyinin əməkdaşı BDU-da "Effektiv "LinkedIn" profilinin hazırlanması" mövzusunda təlim keçib

*BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin "Career Frame" layihəsi çərçivəsində Dövlət Məşğulluq Agentliyinin Mentorluq və inkişaf şöbəsinin əməkdaşı Mikayıl Tağıyevin "Effektiv "LinkedIn" profilinin hazırlanması" mövzusunda onlayn təlimi keçirilib.*

Təlim zamanı iştirakçılara "LinkedIn" profilinin düzgün strukturlaşdırılması, HR mütəxəssisləri və işəgötürənlərin profillərə yanaşma prinsipləri, peşəkar onlayn imicin formalaşdırılması ilə bağlı praktiki biliklər təqdim edilib. Təlimçi mentorluq və inkişaf sahəsində real nümunələr əsasında keyfiyyətli "LinkedIn" profilinin karyera imkanlarının genişlənməsindəki rolunu xüsusi vurğulayıb.

Təlimin sonunda məzunların sualları cavablandırılıb.

Qeyd edək ki, "Career Frame" Karyera və məzunlarla iş Mərkəzinin BDU-nun 2023–2025-ci illər məzunları üçün nəzərdə tutulan karyera inkişaf layihəsidir. Layihə məzunların əmək bazarına hazırlığının artırılması, onların peşəkar bacarıqlarının inkişafı və karyera planlamasına dəstək məqsədi daşıyır.

# BDU-nun tələbələri "Holberton School"un təqaüd proqramının qalibidir

*Fevralın 24-də BDU-nun SABAH qruplarının "Biotexnologiya" ixtisasının IV kurs bakalavr tələbələri Süsən Həsənova, Cəmilə Zairova və Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin II kurs tələbəsi Mehri Quluzadə "Holberton School"un "Generativ Süni İntellekt" (Generative Artificial Intelligence – GenAI) yüz faizlik təqaüd proqramının qalibi olublar.*

Qeyd edək ki, "Holberton School" Silikon Vadisi modelinə əsaslanan, innovativ və praktiki metodologiya ilə İKT və proqramlaşdırma sahəsində tədris həyata keçirən beynəlxalq məktəblər şəbəkəsidir. Tədris prosesi qarşılıqlı öyrənmə üsulu ilə təşkil olunur ki, bu da tələbələrin komanda şəraitində çalışaraq real layihələr üzərində praktiki bilik və bacarıqlar əldə etməsinə imkan yaradır. Tələbələrimizi təbrik edir, fəaliyyətlərində uğurlar arzulayırıq!

# BDU-da elmi-praktiki təlim: “Geoparklar: geoloji irsin qorunması və davamlı inkişaf”

***Fevralın 23-də Geologiya fakültəsinin təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində “Geoparklar: geoloji irsin qorunması və davamlı inkişaf” mövzusunda elmi-praktiki təlim keçirilib.***

Tədbirin məqsədi geopark anlayışının elmi mahiyyətini izah etmək, geoloji irsin qorunmasının vacibliyini diqqətə çatdırmaq, geoparkların davamlı inkişaf, şəhərsalma və ekoloji mühafizə siyasətində rolunu nümayiş etdirmək olub. Tədbir çərçivəsində geoparkların yaradılmasının elmi əsasları, beynəlxalq təcrübə və onların regional inkişaf strategiyalarına inteqrasiyası məsələləri müzakirə olunub.



Tədbirdə Azərbaycan Ekoturizm Assosiasiyasının həmtəsisçisi, Coğrafiya fakültəsinin dosenti Vüqar Dərgahov məruzə ilə çıxış edərək, geoparkların mahiyyəti, funksiyaları və dünyada tətbiq olunan uğurlu modellər barədə məlumat verib. O bildirib ki, geoparklar yalnız geoloji obyektlərin qorunması ilə məhdudlaşmır, həm də elmi tədqiqat, ekoloji maarifləndirmə, geoturizmin inkişafı və yerli icmaların sosial-iqtisadi rifahının yüksəldilməsində mühüm rol oynayır.

Geologiya fakültəsinin dekanı Mamoy Mansurov geoparkların mühəndis-geoloji və hidrogeoloji baxımdan əhəmiyyətinə toxunaraq qeyd edib ki, belə ərazilərin düzgün tədqiqi və xəritələşdirilməsi həm təbii risklərin qiymətləndirilməsi, həm də təhlükəsiz şəhərsalma planlaşdırılması üçün mühüm elmi baza yaradır. O vurğulayıb ki, geoloji irsin qorunması yalnız elmi məsələ deyil, gələcək nəsillər üçün strateji resursların və təbii landşaftların qorunması deməkdir. Mamoy Mansurov geoparkların yaradılması zamanı geodinamik proseslərin, süxur dayanıqlığının və yeraltı suların rejiminin nəzərə alınmasının vacibliyini qeyd edib.

Tədris işləri üzrə dekan müavini İlqar Quliyev isə geoparkların regional inkişaf və iqtisadi diversifikasiya baxımından əhəmiyyətini diqqətə çatdırıb. Bildirib ki, geoparklar geoturizmin inkişafına təkan verərək regionlarda yeni iş yerlərinin yaradılmasına, yerli icmaların gəlir imkanlarının artmasına və ənənəvi təsərrüfat fəaliyyətinin turizm ilə inteqrasiyasına şərait yaradır. O, beynəlxalq təcrübəyə istinad edərək geoparkların uğurlu idarə olunmasının əsas şərtləri kimi yerli icmaların iştirakı, davamlı idarəetmə modeli və maarifləndirici proqramların genişləndirilməsini göstərib.

Natiqlər Azərbaycanın zəngin geoloji və geomorfoloji irsə malik olduğunu vurğulayıb, bu potensialın geopark təşəbbüsləri vasitəsilə qorunmasının və beynəlxalq turizm məkanına inteqrasiyasının mümkünlüyünü qeyd ediblər. Bildirilib ki, geoparkların yaradılması təbii abidələrin mühafizəsinə, ətraf mühitin qorunmasına, ekoloji şüurun formalaşmasına və regionlarda dayanıqlı turizm imkanlarının genişlənməsinə mühüm töhfə verə bilər.

Təlim zamanı geoparkların şəhərsalma və memarlıq mühitinə təsiri, landşaft planlaşdırılması, təbii irsin urban inkişaf prosesində qorunması, açıq təbiət muzeylərinin yaradılması və geoloji marşrutların təşkili kimi məsələlər də müzakirə olunub. İştirakçılar geoparkların təhsil və turizm sahəsində innovativ platforma rolunu oynadığını, tələbələrin praktiki biliklərinin artırılması üçün yeni imkanlar yaratdığını bildiriblər.

Sonda mövzu ilə bağlı suallar cavablandırılıb, geoparkların yaradılması perspektivləri, hüquqi çərçivə, idarəetmə mexanizmləri və ictimai iştirakçılığın təmin edilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

# BDU könüllüləri “Qərbi Azərbaycan Gənc Səfirləri – II” layihəsinin növbəti görüşündə iştirak ediblər

***Fevralın 27-də Qərbi Azərbaycan İcmasında “Qərbi Azərbaycan Gənc Səfirləri – II” layihəsinin iştirakçıları ilə növbəti görüş təşkil olunub.***

İcmanın aparat rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Qalib Qasımov layihənin məqsədləri və prioritet istiqamətləri barədə məlumat verib. Bildirib ki, layihə çərçivəsində gənclərin beynəlxalq platformalarda fəal və peşəkar təmsilçiliyi, Qərbi Azərbaycan həqiqətlərinin sistemli şəkildə çatdırılması əsas hədəflərdəndir.



Gənclər və idman nazirinin müavini İndira Hacıyeva gənclərin təşəbbüskarlıq, intellektual hazırlıq və milli-mənəvi dəyərlərə bağlılıq prinsipləri əsasında fəaliyyət göstərməsinin vacibliyini vurğulayıb. Qeyd edib ki, layihənin birinci mərhələsi uğurla icra olunub və ikinci mərhələnin daha genişmiqyaslı nəticələr verəcəyi gözlənilir. Nazir müavini beynəlxalq müstəvidə fəallıq, düzgün kommunikasiya bacarıqları və strateji yanaşmanın əhəmiyyətinə dair tövsiyələr verib, iştirakçılara uğurlar arzulayıb.

İcmanın Müşahidə Şurasının sədri, BDU-nun Ali riyaziyyat və riyaziyyatın tədrisi metodikası kafedrasının müdiri, professor Misir Mərdanov çıxışında Qərbi Azərbaycan həqiqətlərinin elmi əsaslarla öyrənilməsi və təqdim edilməsinin strateji əhəmiyyət daşıdığını bildirib. O vurğulayıb ki, bu istiqamətdə gənclərin fəallığı xüsusi rol oynayır. Ölkədə həyata keçirilən məqsədyönlü dövlət siyasətinin davamlılığı üçün gənclərin bu siyasəti dərindən mənimsəməsi və ona dəstək verməsi vacibdir.

Görüş zamanı iştirakçıların sualları cavablandırılıb, qarşılıqlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, layihə Gənclər və İdman Nazirliyinin dəstəyi, Dünya Azərbaycanlıları Gənclər Təşkilatının təşkilatçılığı, Qərbi Azərbaycan İcması, Gənclərin İnkişaf və Karyera Mərkəzi, Bakı Dövlət Universiteti və “BDU könüllüləri” təşkilatının tərəfdaşlığı ilə həyata keçirilir.

# BDU-da iqlim dəyişkənliyinin Qızılağac Milli Parkında quş növlərinə təsiri müzakirə olunub

***Fevralın 26-da Ekologiya və torpaqşünaslıq fakültəsində 27 mart – Azərbaycan Respublikasında “Elm günü”nə həsr olunmuş tədbirlər çərçivəsində “İqlim dəyişkənliyinin Qızılağac Milli Parkının qışlayan və oturaq quş növlərinə təsirləri” mövzusunda elmi seminar keçirilib.***

Seminarda Bioekologiya kafedrasının doktorantı Ramil Həsənov iqlim dəyişkənliyinin Qızılağac Milli Parkı ərazisində qışlayan və oturaq quş növlərinin növ müxtəlifliyinə və sayına təsirləri barədə məlumat verib. Məruzəçi müxtəlif illərdə ərazidə aparılan çöl tədqiqatlarının nəticələrini təqdim edib, iqlim dəyişkənliyinin quşların qidalanma və yaşayış mühitinə təsir göstərdiyini bildirib.

Məruzədə nadir və beynəlxalq mühafizə statusuna malik quş növlərinin sayında müşahidə olunan dəyişikliklər qeyd olunub, qışlayan quş növlərinin illər üzrə say dinamikası təqdim edilib. Eyni zamanda, Xəzər dənizinin su səviyyəsinin azalmasının Milli Parkda qışlayan quşların sayına və növ müxtəlifliyinə təsirləri, həmçinin gələcək proqnozlar diqqətə çatdırılıb.

Ramil Həsənov ekstremal hava şəraitlərinin daha çox oturaq quş növlərinə təsir etdiyini vurğulayaraq, iqlim dəyişkənliyinin nəticələrinin azaldılması istiqamətində görülə biləcək tədbirlər barədə də məlumat verib.

Seminar müzakirələrlə davam edib, iştirakçıların sualları cavablandırılıb.

# BDU-da “Mif və atavizmlər: Qədim inancların və bioloji izlərin paralelləri” adlı elmi seminar

***Fevralın 27-də Filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının təşkilatçılığı ilə elmi seminar keçirilib.***

Seminarda kafedranın dosenti Könül Həsənova “Mif və atavizm: Qədim inancların və bioloji izlərin paralelləri” mövzusunda məruzə ilə çıxış edib.

Məruzədə insanın yalnız sosial və şüurlu varlıq deyil, eyni zamanda milyon illik təkamül prosesinin məhsulu kimi genetik və bioloji yaddaş daşıyıcısı olduğu vurğulanıb. Bildirilib ki, müasir genetika insan genomunda təkamül izlərinin qorunduğunu təsdiqləyir və bəzi hallarda əcdadi xüsusiyyətlərin yenidən üzə çıxması müşahidə olunur. Bu hadisə atavizm adlandırılır.

Məruzədə mifologiyanın insanın dünyanı izah etmək üçün yaratdığı ilkin metafizik model, elmin isə bu izahın rasional və empirik mərhələsi olduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, mif və elm bir-birinə zidd deyil, insan təfəkkürünün müxtəlif inkişaf mərhələlərini əks etdirir.

Türk folklorundakı hibrid varlıqlar - Təpəgöz, Yalmavuz, Əjdaha və digərləri arxaik kollektiv yaddaşın simvolik ifadəsi kimi şərh olunub. Təpəgöz obrazının bioloji deyil, psixo-mədəni atavizm nümunəsi olduğu, onun ilkin insanın təhlükə, xaos və yırtıcı qorxusu ilə bağlı şüuraltı yaddaşını əks etdirdiyi bildirilib. Diqqətə çatdırılıb ki, mif və atavizm insan keçmişinin həm bioloji, həm də mədəni qatlarda qorunub saxlanmasını göstərir. Mifoloji mətnlər insanın arxaik yaddaşının simvolik ifadəsi kimi dəyərləndirilməlidir.

# BDU aliminin "Print media istehsalı və texnologiyası" adlı dərs vəsaiti çap olunub

***Fevralın 17-də BDU-nun Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının dosenti Zaur Babayevin "Print media istehsalı və texnologiyası" adlı dərs vəsaiti çapdan çıxıb.***

Yeni nəşr çap mediasının istehsal prosesində tətbiq olunan müasir texnologiyalar, istehsalat mərhələləri, texniki vasitələr və çap prosesinin aktual xüsusiyyətlərini əhatə edir. Dərs vəsaiti əsasən "Jurnalistika" ixtisası üzrə təhsil alan tələbələr, eləcə də çap və nəşriyyat sahəsində çalışan mütəxəssislər üçün nəzərdə tutulub.




Vəsaitdə çap məhsullarının hazırlanma mərhələləri, texnoloji proseslərin təşkili, istehsal zamanı istifadə olunan avadanlıqlar və məhsul keyfiyyətinə təsir edən amillər geniş şəkildə izah edilir. Bununla yanaşı, çap mediası sahəsində texnoloji yeniliklər və müasir istehsal yanaşmaları da nəşrdə əksini tapıb. Yeni dərs vəsaiti media təhsili sahəsində tələbələrin nəzəri biliklərinin artırılması və onların praktiki bacarıqlarının formalaşdırılması baxımından mühüm elmi-praktik mənbə kimi qiymətləndirilir.

# BDU-da yaşıl təhsilin inteqrasiyası və gənclərin dayanıqlılıq təşəbbüsləri beynəlxalq platformada təqdim olunub

***Fevralın 20-də BDU-da yaşıl təhsil və dayanıqlı inkişaf istiqamətində həyata keçirilən fəaliyyətlər dünyanın nüfuzlu ali təhsil platforması olan "Times Higher Education" portalında dərc edilmiş məqalədə geniş şəkildə işıqlandırılıb.***

"Universitetlərdə yaşıl təhsilin inteqrasiyası: Bakı Dövlət Universitetində gənclərin təşəbbüsü ilə dayanıqlılıq" adlı məqalədə Universitetdə ekoloji məsuliyyətli təhsil mühitinin formalaşdırılması, tələbə təşəbbüslərinin təşviqi və dayanıqlı inkişaf dəyərlərinin institusional səviyyədə tətbiqi istiqamətində görülən işlər beynəlxalq auditoriyaya təqdim olunur.

Məqalədə vurğulanır ki, BDU-da yaşıl təhsil yanaşması Universitetin həm akademik fəaliyyətində, həm də tələbə həyatında sistemli şəkildə tətbiq olunur. Bu çərçivədə Ekologiya və torpaqşünaslıq fakültəsində iqlim və davamlı inkişaf mövzularının tədris proqramlarına inteqrasiyası həyata keçirilir, Tələbə Gənclər Təşkilatı və könüllülər hərəkatı vasitəsilə tələbələrin ekoloji maarifləndirmə, sosial məsuliyyət və dayanıqlılıq təşəbbüslərinə fəal cəlb olunması təmin edilir. Universitetdə fəaliyyət göstərən ekoloji yönümlü tələbə birlikləri və ictimai fəaliyyət strukturları isə gənclərin yaşıl ideyalar əsasında layihələr hazırlamasına və həyata keçirməsinə dəstək verir.

Məqalədə qeyd olunur ki, BDU-nun yanaşmasında yaşıl təhsil yalnız akademik məzmunla məhdudlaşmır, eyni zamanda kampus mühiti, tələbə təşəbbüsləri və ictimai fəaliyyət vasitəsilə gündəlik universitet həyatının ayrılmaz komponentinə çevrilir. Bu model tələbələrin iqlim və dayanıqlı inkişaf problemlərinə həssas, təşəbbüskar və məsuliyyətli vətəndaş kimi formalaşmasına xidmət edir.

BDU təcrübəsinin beynəlxalq səviyyədə təqdim olunması universitetin yaşıl transformasiya və dayanıqlı inkişaf sahəsində artan qlobal tanınmasının göstəricisi olmaqla yanaşı, Azərbaycanın ali təhsil sisteminin bu istiqamətdə potensialını da nümayiş etdirir.

# BDU-da elmi seminar: "Azərbaycan sovet mətbuatında I Türkoloji Qurultay materialları"

***Fevralın 23-də Jurnalistika fakültəsində 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr edilmiş "Azərbaycan sovet mətbuatında I Türkoloji Qurultay materialları" mövzusunda elmi seminar təşkil olunub.***

Seminarda BDU-nun Milli mətbuat tarixi kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru Akif Aşırlı məruzə ilə çıxış edib. Məruzəçi I Türkoloji Qurultayın həm tarixi, həm də mətbuat kontekstində əhəmiyyətindən danışıb. Qurultayın türk xalqlarının ortaq dil, əlifba və terminologiya məsələlərinin müzakirə olunduğu mühüm elmi-siyasi platforma olduğunu bildirib. Qeyd olunub ki, bu proses Azərbaycan mətbuatında geniş şəkildə işıqlandırılıb.

Akif Aşırlı vurğulayıb ki, mənbələrdə qurultay müxtəlif adlarla təqdim edilsə də, mətbuat materiallarının böyük əksəriyyətində "Birinci Türkoloji Qurultay" ifadəsi işlədilib. Həmçinin Bakı şəhərinin həmin dövrdə türkoloji fikrin mərkəzi kimi çıxış etməsi bir sıra yazılarda xüsusi qeyd olunub.

Seminarda bildirilib ki, qurultayın əsas müzakirə mövzusu ərəb əlifbasının islahı və latın qrafikalı əlifbaya keçid məsələsi olub. Bununla yanaşı, ortaq türk terminologiyasının formalaşdırılması, ümumi türk tarixi və etnoqrafiyasının öyrənilməsi də gündəmdə yer alıb. Məruzəçi əlifba islahatı ideyasının Azərbaycan maarifçilik tarixində daha əvvəl Mirzə Fətəli Axundzadə tərəfindən irəli sürüldüyünü xatırladıb.



Araşdırmalarda istifadə olunan əsas mətbuat orqanları sırasında "Yeni yol", "İşıq yol", "Maarif və mədəniyyət", "Yeni fikir" və "Kommunist" qəzetlərinin olduğu diqqətə çatdırılıb. Xüsusilə Tiflisdə nəşr olunan "Yeni fikir" qəzetində yeni türk əlifbasına keçid komissiyasının fəaliyyəti ilə bağlı materialların dərc edildiyi bildirilib. Çıxışda qurultayda iştirak edən nümayəndələr haqqında da məlumat verilib. Qeyd olunub ki, Türkiyədən professor Mehmet Fuat Köprülü və türkçülük ideologiyasının görkəmli nümayəndəsi, "Füyuzat" məktəbinin banilərindən Əli bəy Hüseynzadə qurultayda iştirak ediblər. Onların əlifba məsələsində ehtiyatlı və diplomatik mövqe sərgiləmələri mətbuat materiallarında əksini tapıb. Sonradan Türkiyədə Mustafa Kamal Atatürk tərəfindən latın qrafikasına keçidin reallaşdırıldığı xatırladılıb.

Seminarda 1926-cı ildə rus dilində çap olunmuş stenoqram materialları ilə qəzet yazıları arasındakı fərqlər də diqqətə çatdırılıb. Bildirilib ki, bəzi nümayəndələr, xüsusilə Orta Asiyadan olan iştirakçılar ərəb əlifbasının islahı prosesinin yarımçıq qalacağı ilə bağlı narahatlıqlarını ifadə ediblər.

Seminarın sonunda vurğulanıb ki, I Türkoloji Bakı Qurultayı təkcə əlifba dəyişikliyi ilə məhdudlaşmayıb, türk xalqlarının ortaq kimlik, dil və mədəni birlik istiqamətində atdığı mühüm tarixi addım olub.

Tədbir müzakirələrlə davam edib,

# BDU-da elmi seminar: "Bioetanolun yanacağa çevrilməsində seolitlərin rolu və istifadə olunan üsullar"

***Fevralın 20-də Kimya fakültəsinin Fiziki və kolloid kimya kafedrasında 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr edilmiş tədbirlər çərçivəsində "Bioetanolun yanacağa çevrilməsində seolitlərin rolu və istifadə olunan üsullar" mövzusunda elmi seminar keçirilib.***

Məruzəçi, kafedranın doktorantı Xanımbacı Məmmədova mövzu ilə bağlı çıxış edib. O bildirib ki, müasir dövrdə bioetanolun yanacağa çevrilməsi prosesində seolitlər yüksək turşuluq və selektiv məsamə quruluşuna malik katalizatorlar kimi mühüm rol oynayır. Bu katalizatorlar dehidratlaşma, krekinq və aromatikləşmə reaksiyalarını sürətləndirərək bioetanolun karbohidrogenlərə, o cümlədən benzin fraksiyalı məhsullara çevrilməsini təmin edir. Bərpa olunan xammal bazasına əsaslanan yanacaq texnologiyalarının inkişafı müasir enerji keçidi şəraitində xüsusi aktuallıq kəsb edir.

Seminarda seolit əsaslı katalitik dehidratlaşma üsulları, eləcə də ZSM-5 tipli seolitlər üzərində həyata keçirilən birbaşa ethanol-to-hydrocarbons (ETH) prosesi haqqında məlumat verilib. Bildirilib ki, prosesin effektivliyi katalizatorun turşuluq dərəcəsi, məsamə quruluşu və metal modifikasiyası ilə müəyyən olunur.

Vurğulanıb ki, seolit katalizatorları bioetanolun yalnız alternativ yanacaq kimi deyil, həm də neft-kimya sənayesi üçün davamlı xammala çevrilməsində mühüm əhəmiyyət daşıyır. Bu yanaşma bərpa olunan xammalın mövcud yanacaq sisteminə inteqrasiyasına imkan yaradaraq davamlı enerji modelinə keçid baxımından strateji əhəmiyyət kəsb edir.

Seminar müzakirələrlə davam edib, iştirakçıların suallari cavablandırılıb.

# BDU-nun magistrantları məktəbəqədər yaşlı uşaqlarla diaqnostik işlər aparıblar

***Fevralın 24-də Sosial elmlər və psixologiya fakültəsinin "Klinik psixologiya" magistratura ixtisaslaşması üzrə təhsil alan tələbələri peşəkar bacarıqların inkişafı məqsədilə "Yaşıl ada" uşaq bağçasında praktiki məşğələ keçiriblər. Psixologiya kafedrasının professoru Elnarə Səfiyeva və müəllim Emiliya İgidovanın rəhbərliyi ilə təşkil olunan məşğələ çərçivəsində məktəbəqədər yaşlı uşaqlarla diaqnostik işlər aparılıb.***

Təlimin əsas məqsədi gələcəyin klinik psixoloqlarına normal inkişaf səviyyəsinə malik uşaqlarla iş metodlarını öyrətmək və bu inkişafın klinik meyarlarını real mühitdə nümayiş etdirmək olub. Magistrantlar uşaqların koqnitiv inkişaf səviyyəsini, emosional vəziyyətlərini və davranış xüsusiyyətlərini müasir klinik-psixoloji metodlarla təhlil etmək imkanı əldə ediblər. Xüsusilə vurğulanıb ki, peşəkar klinik psixoloq patoloji halları düzgün müəyyən etmək üçün ilk növbədə normal inkişafın qanunauyğunluqlarını, uşaqların yaş dövrlərinə görə sosial adaptasiya və ünsiyyət bacarıqlarını dərindən mənimsəməlidir.

Qeyd edilib ki, bu cür praktiki məşğələlər magistrantların auditoriyalarda əldə etdikləri nəzəri bilikləri real iş mühitində tətbiq, diaqnostik alətlərdən sərbəst istifadə etmələrinə, peşəkar klinisist kimi formalaşmalarına mühüm töhfə verir. Yekunda aparılan müşahidələr elmi rəhbərlər tərəfindən müzakirə olunub, erkən müdaxilənin əhəmiyyəti və uşaq psixologiyasının incəlikləri barədə magistrantlara tövsiyələr verilib.

# Tarix fakültəsinin tələbələri Heydər Əliyev Muzeyini ziyarət ediblər

***Fevralın 19-da Tarix fakültəsinin I kurs tələbələri Universitetin Heydər Əliyev Muzeyini ziyarət ediblər.***



Muzeyin mütəxəssisi Afət Seyidzadə tələbələrə muzeyin fəaliyyəti barədə məlumat verib. Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin təbliği və öyrənilməsində mühüm rol oynayan muzey 1997-ci ildə Ulu Öndərin şəxsi razılığı ilə fəaliyyətə başlayıb.

Ekspozisiyada BDU-nun dünya şöhrətli məzunu və fəxri doktoru, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən sənəd və materiallar nümayiş olunur. Ulu Öndərin mənalı və zəngin ömrünü əks etdirən sənədlər və fotoşəkillər tələbələrdə böyük təəssürat yaradıb.

Qeyd edək ki, 2023-cü ildə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə BDU-nun Tədbirlər Planı çərçivəsində muzey ən müasir standartlara uyğun şəkildə yenidən qurulub.

# "Ana dilimiz - toxunulmaz sərvətimiz"

***Jurnalistika, Filologiya və Şərqşünaslıq fakültələrinin Tələbə Elmi cəmiyyətlərinin (TEC) birgə təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində 21 fevral – Beynəlxalq Ana Dili Günü münasibətilə "Ana dilimiz – toxunulmaz sərvətimiz" adlı tədbir təşkil olunub.***

Tədbirdə çıxış edən tələbələr ana dilinin qorunması mövzusuna müxtəlif aspektlərdən yanaşıblar. Filologiya fakültəsinin tələbəsi Leyla Nəbizadə ana dilinin milli kimliyin formalaşmasındakı rolunu və əhəmiyyətini vurğulayıb. Şərqşünaslıq fakültəsinin tələbəsi Emil Babazadə qloballaşma dövründə ana dilinin media, ədəbiyyat və akademik mühitdə qorunması və inkişaf etdirilməsi yollarından danışıb. Jurnalistika fakültəsinin tələbəsi Gülər Mustafayeva isə medianın və jurnalistikanın ana dilinin düzgün istifadəsindəki məsuliyyətinə diqqət çəkib, bunun cəmiyyətə təsirlərini qeyd edib.

# Bakı-Belqrad: Geoiqtisadi tərəfdaşlıq

***Fevral ayının 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasına rəsmi səfəri iki ölkə arasında mövcud olan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin daha da dərinləşdirilməsi baxımından mühüm hadisədir.***



Bu səfər iki dost və tərəfdaş ölkə arasında siyasi, iqtisadi, enerji və nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Səfər çərçivəsində keçirilən görüşlər, imzalanan sənədlər və dövlət başçısının mətbuata verdiyi bəyanat Azərbaycan–Serbiya münasibətlərinin hazırkı vəziyyətini və gələcək inkişaf istiqamətlərini aydın şəkildə ortaya qoyur. Bu eyni zamanda hər iki ölkənin xarici siyasət strategiyasında mühüm mərhələ kimi qiymətləndirilir, verilən bəyanatlar iki ölkəarasındakımünasibətlərin mövcud vəziyyətini və gələcək inkişaf perspektivlərini yeni mərhələyə daxil olmasının yüksək keyfiyyətini bir daha nümayiş etdirdi. Bu münasibətlər qarşılıqlı hörmət, etimad və dostluq prinsiplərinə əsaslanır. Prezident İlham Əliyev çıxışında iki ölkə rəhbərləri arasında formalaşmış səmimi münasibətlərin dövlətlərarası münasibətlərin inkişafına mühüm təsir göstərdiyini vurğulamışdır: "…Siz Azərbaycan nümayəndə heyətini qəbul edirsiniz. Biz bunu yüksək münasibətlərin təzahürü kimi qiymətləndiririk. Serbiya və Azərbaycan – iki dost ölkə daim bir-birinin yanındadır".

Sərvətləri məhdud olan Serbiyada həyata keçirilən islahatlar iqtisadi, sosial, mədəni, siyasi sahədə mühüm uğurlar əldə etmiş, beynəlxalq arenada nüfuzunu artırmışdır. Bütün bu faktorlar sübut edir ki, tərəfdaşlıq geostrateji məzmun cəhətdən də maraqlıdır.

Azərbaycan və Serbiyanın qlobal məsələlərdə birgə fəaliyyəti beynəlxalq platformalarda mövqeylərinin dəstəklənməsi qarşılıqlı həmrəylik nümayiş etdirir. İqtisadiyyatın müxtəlif qollarını - enerji, elektrik istehsalı, kənd təsərrüfatı, ticarət sahəsinə olan maraq göstərir ki, bu sahələrdə birgə layihələrin həyata keçirilməsi praktik şəkildə öz töhfələrini verir.

Azərbaycanın Serbiyaya investisiya qoymaq niyyəti ölkələr arasında iqtisadi əməkdaşlığın mühüm addımlarından hesab olunur. Bu əməkdaşlıq Serbiyanın enerji mənbələrinin genişlənməsinə, elektrik stansiyalarının tikintisinə, regionda enerji təhlükəsizliyinin möhkəmlənməsinə əvəzsiz xidmətdir. Azərbaycanın enerji infrastruktur layihələri uzunmüddətli iqtisadi inkişafı təmin edən əsas amillərdən hesab olunur. Həmçinin Azərbaycanın Serbiyaya böyük həcmdə sərmayə qoyması mühüm istiqamətlərindən biridir. Bu layihə təbii resursları məhdud olan ölkə üçün enerji təhlükəsizliyinin təmin edilməsində əsas rol oynayacaq. Azərbaycanın Serbiyaya təbii qaz ixracına başlaması, qaz ixracının artırılması, qazın elektrik enerjisinə çevrilməsi Serbiyanın daxili bazar imkanları üçün yeni perspektivlər açır.

Hər iki dövlət başçısı arasında qarşılıqlı müqavilələrin davam etdirilməsi haqda razılıq yeni layihələrin, investisiya təşəbbüslərinin, çoxtərəfli əməkdaşlıq modellərinin formalaşmasına şərait yaradacaq. Bu baxımdan Serbiya–Azərbaycan əməkdaşlığı regional enerji xəritəsində yeni geoiqtisadi balans formalaşdırır. Serbiya ilə əlaqələrin inkişafı regionlararası əməkdaşlığın güclənməsinə, sülhün və sabitliyin möhkəmləndirilməsinə xidmət edən mühüm amildir. Prezident İlham Əliyevin bu ölkəyə rəsmi səfəri zamanı Serbiya Prezidenti Aleksandar Vuçiç ilə ali səviyyədə keçirilən görüşləri, aparılan geniş tərkibli danışıqlar və səsləndirilən mesajlar bu münasibətlərin dərin məzmun daşıdığını bir daha təsdiqlədi. Avropada keçirilən bu görüşdə Azərbaycan geosiyasi proseslərin mürəkkəbləşdiyi bir dövrdə etibarlı tərəfdaş, məsuliyyətli beynəlxalq aktor kimi öz mövqeyini bir daha sübut edir.

***Afaq Sadıqova,***
*Bakı Dövlət Universitetinin elmi işçisi*

# BDU-nun "YENİ Klub"u Beynəlxalq Ana Dili Gününə həsr olunmuş tədbir keçirib

***Fevralın 20-də BDU-da fəaliyyət göstərən "YENİ Klub" 21 fevral – Beynəlxalq Ana Dili Gününə həsr olunmuş "Dil – milli kimliyin elçisi" adlı tədbir keçirib.***

BDU-nun Filologiya fakültəsinin baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Ramil Bayramov bildirib ki, mənəviyyatın formalaşmasında və inkişafında dil ən mühüm vasitədir. Bu baxımdan ana dilinin qorunması və inkişaf etdirilməsi hər bir vətəndaşın müqəddəs borcudur. Bütün bu məsələlərin vahid siyasət kimi əsasını qoyan Ümummilli Lider Heydər Əliyevin hələ ötən əsrin 70-ci illərindən dilimizə qarşı formalaşdırdığı münasibət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dilimizin saflığının qorunması hazırda prioritet istiqamət kimi müəyyən edilib.

Tədbirdə ana dilinin istifadəsi zamanı yol verilən nöqsanlar və onların aradan qaldırılması yollarına dair müzakirələr aparılıb.

# BDU-da Beynəlxalq Ana Dili Gününə həsr olunmuş elmi sessiya keçirilib

*"Dilə münasibət ilk növbədə məktəbdən formalaşmalı, daha sonra mətbuat müstəvisində davam etdirilməlidir. Keçirilən elmi sessiya Azərbaycan dilinin saflığının qorunması və inkişafı ilə bağlı təkliflərin irəli sürülməsi baxımından önəmlidir".*

***Fevralın 20-də Filologiya fakültəsinin və AMEA Folklor İnstitutunun birgə təşkilatçılığı ilə 21 fevral – Beynəlxalq Ana Dili Gününə həsr olunmuş "Ana dilinin saflığının qorunması: qloballaşma dövründə milli kimlik və dil" mövzusunda elmi sessiya keçirilib.***

Filologiya fakültəsinin dekanı Elçin Məmmədov qloballaşma dövründə dillərin üzləşdiyi problemlərdən bəhs edib. O bildirib ki, xalqlar arasında artan qarşılıqlı əlaqə dillərə də təsirsiz ötüşmür. Qərb ölkələrinin təcrübəsinə toxunan dekan Almaniya və Fransa kimi ölkələrin öz dillərinin qorunması və yayılması istiqamətində məqsədyönlü proqramlar həyata keçirdiyini, bununla da qlobal miqyasda yayılan ingilis dilinə qarşı dil siyasəti formalaşdırdıqlarını qeyd edib.

Dekan Azərbaycan dilinin qorunması və saflığı ilə bağlı Prezident İlham Əliyevin çıxışlarının həm elmi, həm də ictimai müstəvidə xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Qeyd edib ki, dilə münasibət ilk növbədə məktəbdən formalaşmalı, daha sonra mətbuat müstəvisində davam etdirilməlidir. Keçirilən elmi sessiya Azərbaycan dilinin saflığının qorunması və inkişafı ilə bağlı təkliflərin irəli sürülməsi baxımından önəmlidir.

AMEA Folklor İnstitutunun direktoru Hikmət Quliyev isə çıxışında qlobal dövrdə və açıq informasiya mühitində dil üçün təhlükələrin artdığını diqqətə çatdırıb. O bildirib ki, Prezident İlham Əliyev çıxışlarında Azərbaycan ədəbi dilinin və kommunikasiya dilinin qorunmasının vacibliyini daim vurğulayır: "Dil təbii və canlı sistem olaraq təhlükələrə qarşı müqavimət göstərsə də, onun daim qayğıya ehtiyacı var. Dövlət qayğısı olmadan dilin saflığı təhlükə altına düşə, hətta sıradan çıxa bilər. İnternet mühitində yaranan yeni sözlər dilə təsir edir. Dilin qorunması yalnız məktəb və mətbuatla məhdudlaşmamalı, ailə mühitində, şifahi ünsiyyətdə də təmin edilməlidir. Xüsusilə süni intellektin sürətlə inkişaf etdiyi dövrdə Azərbaycan dilinin və ədəbi nümunələrin qorunması vacibdir. Azərbaycan dilinin saflığının qorunması məsələsi daim aktual olaraq qalacaq, bu istiqamətdə elmi müzakirələrin aparılması mühüm əhəmiyyət kəsb edir".

Sessiyanın davamında filologiya elmləri doktorları - professor Tofiq Hacıyev, dosent Ağaverdi Xəlil, filologiya üzrə fəlsəfə doktorları - dosent Fikrət Şiriyev, Əpoş Vəliyev və Folklor İnstitutunun böyük elmi işçisi Zəfər Fərhadov məruzə ediblər.

# BDU tələbələri üçün AzTV-də infossessiya

***Fevralın 12-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) Jurnalistika fakültəsindən olan üzvləri üçün "Azərbaycan Televiziya və Radio Verilişləri" (AzTV) QSC-də infossessiya keçirilib.***

Əvvəlcə AzTV-nin nəzdində fəaliyyət göstərən Teleradio Akademiyasının direktoru, filologiya üzrə fəlsəfə doktoru Almaz Nəsibova Akademiyanın fəaliyyət istiqamətlərindən söz açıb, gənc jurnalistləri də Akademiyanın üzvü olmağa çağırıb. Sonra tələbələr AzTV, Mədəniyyət TV və İdman TV-nin xəbər xidmətləri və studiyaları ilə tanış olublar. Xəbərlər studiyasının direktor müavini Ramilə İsayeva onlara xəbərlərin, müxtəlif verilişlərin efirə hazırlanması, təqdimatı, televiziyada iş prinsiplərini əyani şəkildə göstərib. Tələbələr həmçinin AzTV-nin "Qızıl fond"unun rəqəmsallaşma mərkəzi ilə də tanış olublar. Videokino materiallar şöbəsinin rəisi Fatma Rzaqulu qızı Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin dəstəyi ilə yaradılan mərkəzdə "Qızıl fond"a daxil olan materiallar üzərində rəqəmsallaşdırma, rəng korreksiyası və səs bərpası kimi proseslərin aparılması barəsində məlumat verib.



Daha sonra Əməkdar artist, nitq mədəniyyəti üzrə mütəxəssis, Teleradio Akademiyasının müəllimi Sevda Ağazadə tələbələr üçün ustad dərsi keçib. Qeyd edib ki, 70 illik böyük tarixə və zəngin inkişaf yoluna malik Azərbaycan Dövlət Televiziyası onillər ərzində fasiləsiz informasiya axınına, dilimizin və mədəniyyətimizin inkişafına öz əvəzsiz töhfəsini verib. Bu il Azərbaycan radiosu 100, televiziyası isə 70 illiyini qeyd edir: "Ölkəmizdə böyük jurnalist nəslinin yetişməsində əsas rol oynayan BDU-nun Jurnalistika fakültəsinin tələbələrinin belə əlamətdar zaman kəsiyində doğma televiziyamıza ziyarəti və marağı böyük ümidlər doğurur".

Sonda tələbələrin televiziyanın fəaliyyətinə dair sualları cavablandırılıb.

# BDU-da əmək hüququnda süni intellektin tətbiqi problemlərinə dair araşdırmalar aparılır

***Fevralın 13-də Hüquq fakültəsinin təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr edilmiş tədbirlər çərçivəsində "Əmək hüququnda süni intellektin tətbiqi problemləri" mövzusunda elmi seminar keçirilib.***

Seminarda hüquq elmləri üzrə fəlsəfə doktoru Elmira Qəzvinova-Həsənzadə məruzə ilə çıxış edib. Məruzəçi çıxışında süni intellekt texnologiyalarının müasir əmək münasibətlərinə təsirindən, rəqəmsal transformasiyanın əmək hüququnda yaratdığı yeni çağırışlardan və hüquqi tənzimləmənin aktuallığından bəhs edib. Qeyd olunub ki, süni intellekt artıq yalnız texniki vasitə deyil, işçi qüvvəsinin idarə olunması, əmək məhsuldarlığının qiymətləndirilməsi və qərar qəbuletmə proseslərində fəal iştirak edən mexanizmə çevrilib.

Çıxışçı məruzəsində alqoritmik idarəetmə anlayışına xüsusi diqqət çəkərək bildirib ki, süni intellektə əsaslanan sistemlər işçi qüvvəsinin planlaşdırılması, tapşırıqların bölüşdürülməsi, əməkhaqqının müəyyən edilməsi, işçilərin fəaliyyətinə nəzarət və performansın qiymətləndirilməsi kimi funksiyaları həyata keçirir. Bu isə bir tərəfdən əmək səmərəliliyinin artmasına şərait yaratsa da, digər tərəfdən diskriminasiya riski, şəxsi məlumatların qorunması və sosial təminatın zəifləməsi kimi hüquqi problemlər doğurur.

Məruzədə süni intellektin işə qəbul prosesində tətbiqi, rəqəmsal əmək platformalarının fəaliyyəti, işçilərin monitorinqi üçün istifadə olunan texnoloji vasitələr və onların əmək hüququ baxımından nəticələri də təhlil edilib. Bildirilib ki, əmək hüququnun əsas vəzifələrindən biri bu texnologiyaların tətbiqi zamanı işçilərin hüquq və azadlıqlarının qorunmasını təmin etməkdir.

Elmi seminar interaktiv müzakirələrlə davam edib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# BDU-da rəqəmsallaşma istiqamətində fəaliyyət planı təkmilləşdirilir

***Fevralın 17-də BDU-da rəqəmsallaşma istiqamətində həyata keçirilən tədbirlərin daha sistemli və strateji əsasda inkişaf etdirilməsi məqsədilə fəaliyyət planı mərhələli olaraq təkmilləşdirilir.***

Bununla bağlı BDU Elmi Şurası müvafiq qərar qəbul edib. BDU-nun rektoru Elçin Babayev bildirib ki, 2026-cı il fevralın 11-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilən və "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə ölkəmizin gələcək inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Müşavirədə dövlət başçısının süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsallaşma və bu sahədə kadr hazırlığı ilə bağlı səsləndirdiyi strateji tapşırıqlar ali təhsil müəssisələrinin üzərinə də mühüm vəzifələr qoyur.

Rektor diqqətə çatdırıb ki, bu istiqamətdə BDU-da artıq məqsədyönlü və davamlı işlər həyata keçirilir. Universitetdə Rəqəmsal Tədqiqatlar Mərkəzi və İnformasiya Texnologiyaları Mərkəzi fəaliyyət göstərir. Hazırda fəaliyyəti yenidən qurulan və məlumatlandırılan Azərbaycan-Koreya İnformasiya Təminatı Mərkəzində süni intellekt, kibertəhlükəsizlik və kriptoqrafiya üzrə layihələr icra olunacaq. BDU-da Süni intellekt etikası kafedrası yaradılıb. Universitet süni intellekt və kibertəhlükəsizlik sahələrində xüsusi layihələrin genişləndirilməsini, dövlət, sənaye və biznes strukturları ilə əməkdaşlığın dərinləşdirilməsini hədəfləyir.

Təkmilləşdirilən fəaliyyət planında "rəqəmsal universitet" modelinin inkişafı, yeni ixtisas və təhsil proqramlarının yaradılması, mövcud proqramların müasirləşdirilməsi, kadr hazırlığının gücləndirilməsi, süni intellektin universitetin idarəetmə sistemlərinə inteqrasiyası, beynəlxalq strateji tərəfdaşlığın genişləndirilməsi və BDU-nun milli rəqəmsal arxitekturanın akademik platformalarından birinə çevrilməsi kimi prioritet istiqamətlərin əks olunması nəzərdə tutulur.

# BDU-da beynəlxalq cinayətlər törətməkdə təqsirləndirilən şəxslərin mühakiməsində milli məhkəmələrin rolu müzakirə olunub

***Fevralın 12-də Hüquq fakültəsinin təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr edilmiş tədbirlər çərçivəsində "Soyqırım və digər beynəlxalq cinayətləri törətməkdə təqsirli bilinən şəxslərin mühakimə edilməsində milli məhkəmələrin rolu" mövzusunda elmi seminar keçirilib.***

Hüquq fakültəsinin dekanı Zaur Əliyev bildirib ki, seminarın mövzusu müasir beynəlxalq hüquq baxımından son dərəcə aktualdır. O vurğulayıb ki, bu cür elmi müzakirələr beynəlxalq cinayətlərin araşdırılması, hüquqi mexanizmlərin təkmilləşdirilməsi və gənc hüquqşünasların bilik və bacarıqlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Dekan seminarın həm elmi, həm də praktik baxımdan faydalı olacağını qeyd edib.

Seminarda Hüquq fakültəsinin elmi işlər üzrə dekan müavini Rahim Məmmədov məruzə ilə çıxış edib. Məruzəçi çıxışında XX əsrin sonları və XXI əsrin əvvəllərində beynəlxalq münasibətlər sistemində baş verən proseslərin beynəlxalq hüquqa ciddi zərbə vurduğunu bildirib. Rahim Məmmədov Azərbaycan xalqının da tarix boyu bu cür təcavüzkar siyasətin qurbanı olduğunu, xüsusilə XX əsrin 90-cı illərində Ermənistanın hərbi-siyasi dairələri tərəfindən xalqımıza qarşı çoxsaylı soyqırımı və müharibə cinayətlərinin törədildiyini vurğulayıb. O, 1992-ci ilin fevral ayında Xocalıda törədilmiş soyqırımını insanlığa qarşı ən ağır cinayətlərdən biri kimi dəyərləndirib. Məruzəçi 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünün bərpa edildiyini və bunun beynəlxalq hüquq baxımından yeni reallıqlar yaratdığını diqqətə çatdırıb.

Çıxışda xüsusilə vurğulanıb ki, fevralın 5-də Azərbaycan xalqına qarşı soyqırımı, müharibə və digər ağır beynəlxalq cinayətləri törətməkdə təqsirləndirilən şəxslər barəsində məhkəmə hökmü çıxarılıb. Bildirilib ki, bu qərar haqqın və ədalətin bərpası olmaqla yanaşı, beynəlxalq cinayətlərin cəzasız qalmayacağına dair dünya ictimaiyyətinə verilən açıq mesajdır. Qeyd edilib ki, Azərbaycan məhkəmələri bu prosesdə həm milli qanunvericiliyi, həm də ölkənin qoşulduğu beynəlxalq müqavilələri əsas götürüb.

# BDU-da elmi seminar: "Fars dilində rəng adlarının morfoloji quruluş modelləri"

***Fevralın 24-də Şərqşünaslıq fakültəsində 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş "Fars dilində rəng adlarının morfoloji quruluş modelləri" mövzusunda elmi seminar keçirilib.***

Orta Şərq dilləri və ədəbiyyatı kafedrasının müəllimi Leyla Məmmədova mövzu üzrə məruzə edib. Məruzəçi fars dilində rəngləri ifadə edən leksikanın təsnifatı, morfoloji quruluş modelləri, şəkilçilərin sinonimliyi və məhsuldarlığı haqqında məlumat verib. Qeyd edib ki, dünyanın ən qədim dili sayılan fars dilinin lüğət tərkibində rəng terminlərinin sayı çoxdur. Onlar qədim dövrlərdən başlayaraq fars dilinin söz ehtiyatına daxil olub, həm həqiqi, həm də məcazi mənada istifadə edilib.

Fars dilində rəng adlarının dilçilik baxımından tədqiqi XX əsrin sonuna təsadüf edir. Quruluşca düzəltmə sifətlər olan rəng adlarının yaranmasında bəzi şəkilçilər iştirak edir. Bu şəkilçilər müasir fars dilində öz məhsuldarlığı ilə fərqlənir, bəzi şəkilçilər isə arxaikləşərək funksiyasını itirib. Seminarda təqdim olunan nümunələr Nizami Gəncəvinin yaradıcılığından götürülüb, nəzəri müddəalar konkret dil faktları ilə əsaslandırılıb.

Sonda iştirakçıların sualları cavablandırılıb.

# BDU-da peptid təbiətli antibiotiklərin tədqiqi ilə bağlı araşdırmalar aparılır

***Fevralın 16-da Biologiya fakültəsinin təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində "Peptid təbiətli antibiotiklərin tətbiq perspektivləri" mövzusunda dəyirmi masa keçirilib.***

Molekulyar biologiya və biotexnologiyalar kafedrasının professoru Saib Güləhmədovun moderatorluğu ilə keçirilən dəyirmi masada fakültə rəhbərliyi, professor-müəllim heyəti, doktorant və magistrantlar iştirak ediblər.



Qonaq məruzəçi, Naxçıvan Dövlət Universitetinin Biotexnologiya Mərkəzinin direktoru Əli Quliyev mövzuya dair təqdimat edib, daha sonra müzakirələr aparılıb. Qeyd olunub ki, peptid təbiətli antibiotiklər mikroorqanizmlərə qarşı yüksək selektivlik və güclü antimikrob təsir xüsusiyyətlərinə malik perspektivli maddələr sırasına daxildir. Bu birləşmələr əsasən bakteriya hüceyrə membranının zədələnməsi və ya hüceyrədaxili hədəflərə təsir mexanizmi vasitəsilə fəaliyyət göstərir. Bu isə antibiotiklərə qarşı rezistentliyin formalaşma ehtimalının azalmasına şərait yaradır və onların alternativ terapevtik vasitə kimi əhəmiyyətini artırır.

Vurğulanıb ki, müasir dövrdə antibiotiklərə qarşı davamlılığın sürətlə artması peptid əsaslı preparatlara elmi marağı daha da gücləndirir. Peptid antibiotiklərin tibb sahəsi ilə yanaşı, baytarlıq və qida sənayesində də geniş tətbiq imkanlarına malik olduğu diqqətə çatdırılıb. Bununla belə, onların sabitlik, potensial toksiklik və yüksək istehsal xərcləri kimi müəyyən məhdudiyyətləri də qeyd edilib.

Gələcək tədqiqat istiqamətləri kimi peptidlərin struktur modifikasiyası, stabilliyin artırılması və yeni nəsil çatdırılma sistemlərinin işlənib hazırlanması xüsusi vurğulanıb ki, bu da onların klinik praktikada tətbiq imkanlarını genişləndirə bilər.

Tədbirdə tədris prosesində bu istiqamət üzrə elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi, magistrant və doktorantların layihələrə daha fəal cəlb olunmasının vacibliyi bildirilib.

# BDU-nun buraxılış kurs tələbələrinin istehsalat təcrübələri başlayır

***Fevralın 16-da BDU-da buraxılış kurs tələbələrinin müxtəlif müəssisə və təşkilatlarda istehsalat təcrübələri başlayır.***

Bu təşkilatların arasında Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Milli Məclis, Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Müdafiə Sənayesi Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Mədəniyyət Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi, Dövlət İmtahan Mərkəzi, Ali Məhkəmə, Konstitusiya Məhkəməsi, AMEA-nın elmi-tədqiqat institutları, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Gənclər Fondu, Azərbaycan Tələbə Gənclər Təşkilatı İttifaqı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, "BP-Azərbaycan", Ombudsman Aparatı, yerli TV və radiolar, kütləvi informasiya vasitələri, daxili turizm şirkətləri, "AzerGold" QSC, "Agro Bitki Klinikası" MMC, "Azər Maya" MMC, Azərbaycan Turizm Agentlikləri Assosiasiyası, Azərbaycan Ekoturizm Assosiasiyası, F.Köçərli adına Respublika Uşaq Kitabxanası, "Azerbaijan International Mining Company Limited" Şirkəti, "Miniso" CO MMC şirkəti, Misir Ərəb Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, "Psychological Wellness Clinic" MMC və s. kimi qurum və təşkilatlar yer alır.

İstehsalat təcrübələrində BDU-nun 1500-ə yaxın buraxılış kurs tələbəsi iştirak edəcək.

# BDU-da "Sufi fenomenologiya: dövrümüzün yeni fəlsəfi sistemi" mövzusunda ustad dərsi

***Sosial elmlər və psixologiya fakültəsinin Fəlsəfə kafedrasının təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Fəlsəfə və Sosiologiya İnstitutunun İslam fəlsəfəsi və dinşünaslıq şöbəsinin müdiri, professor Könül Bünyadzadənin "Fəlsəfə" ixtisasında təhsil alan tələbələr üçün "Sufi fenomenologiya: dövrümüzün yeni fəlsəfi sistemi" mövzusunda ustad dərsi təşkil olunub.***

Könül Bünyadzadə tələbələrə bu istiqamətdə apardığı tədqiqatlar və "Sufi fenomenologiya" adlı ikicildlik əsəri haqqında məlumat verib. Qeyd edib ki, sufi fenomenologiya orta əsr



Şərq fəlsəfəsi (sufizm) ilə çağdaş dövr fəlsəfəsinin (fenomenologiya) kəsişmə nöqtəsi üzərində qurulmuş, müasir dövrün tələblərinə uyğun yeni düşüncə qatlarını açan, ruh və məntiq arasında sintez yaratmaqla onu maddi dünya çərçivəsindən yüksəyə qaldıra bilən, mənəvi və mental keyfiyyətlərin kamilləşməsinə yönələn fəlsəfi sistemdir. O, tələbələri sufi fenomenologiyaya giriş, yeni fəlsəfənin əsasları, sufi fenomenoloji metodologiya və ağıl haqqında mülahizələrlə tanış edib. Yeni fəlsəfi sistemdə ruhani təcrübə ilə şüur təcrübəsinin vahid strukturu kontekstində varlıq problemi və idrak nəzəriyyəsinə yeni baxış bucağının irəli sürüldüyünü deyib.

Məruzəçi öz mahiyyətini dərk etmək, mənəviyyatla gerçəklik arasında sabit körpü qurmaq, fəlsəfənin müasir dövrdə rolunu anlamaq və dünyaya fərqli prizmadan baxmaq istəyənlər üçün sufi fenomenologiya təliminin mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Ustad dərsi zamanı tələbələri maraqlandıran suallar cavablandırılıb, mövzu ətrafında müzakirələr aparılıb.

# BDU-da "Mədəni irs" mövzusunda maarifləndirici tədbir

***Fevralın 17-də İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə 27 mart – Azərbaycan Respublikasında "Elm günü"nə həsr olunmuş tədbirlər çərçivəsində "Mədəni irs" mövzusunda maarifləndirici tədbir keçirilib.***

Tədbirdə BDU-nun Sənəd menecmenti kafedrasının müdiri, dosent Nadir İsmayılov məruzə ilə çıxış edib. Məruzədə mədəni irsin qorunmasının və elmi əsaslarla öyrənilməsinin müasir cəmiyyət üçün strateji əhəmiyyət daşıdığı vurğulanıb. Bildirilib ki, mədəni irs təkcə tarixi-mədəni dəyər deyil, elmi-tədqiqat obyekti və mühüm informasiya resursudur.

Nadir İsmayılov qeyd edib ki, arxiv, kitabxana və muzey fondlarında mühafizə olunan sənədlər mədəni irsin öyrənilməsi və gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır. O, həmçinin rəqəmsallaşdırma proseslərinin mədəni irs resurslarının qorunması və istifadəsinin genişləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Məruzədə tədbirin əsas məqsədinin mədəni irsin maddi və qeyri-maddi komponentləri, Azərbaycanın zəngin tarixi-mədəni irs nümunələri, eləcə də sənəd resurslarının mədəni irsin qorunmasında rolu barədə tələbələri maarifləndirmək olduğu vurğulanıb.

Daha sonra İnformasiya və sənəd menecmenti fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) sədri Aynur Ələsgərova bu kimi maarifləndirici tədbirlərin tələbələrin elmi dünyagörüşünün formalaşmasına, mədəni irsə məsuliyyətli münasibətin gücləndirilməsinə və gələcək peşə fəaliyyətlərində müasir elmi yanaşmaların tətbiqinə mühüm töhfə verdiyini bildirib.

# BDU-da "TEKNOFEST-2026" ilə bağlı infosessiya



***Fevralın 17-də "Bilim Bakı" Mərkəzinin rəhbəri, "TEKNOFEST"in Azərbaycandakı rəsmi nümayəndəsi Ahmet Köse Bakı Dövlət Universitetinin (BDU) tələbələri üçün infosessiya keçirib.***

İnfosessiya zamanı Ahmet Köse dünyanın ən böyük aerokosmik və texnologiya festivalı olan "TEKNOFEST"in gənclər üçün yaratdığı imkanlardan, xüsusilə tələbələrin elmi-texnoloji potensialının üzə çıxarılmasında rolundan danışıb.

Qeyd olunub ki, festival çərçivəsində aviasiya, kosmos, süni intellekt, robototexnika, kibertəhlükəsizlik, enerji texnologiyaları və digər sahələri əhatə edən 76 kateqoriya üzrə yarışmalar keçirilir. Bu yarışmalarda məktəblilərdən tutmuş ali təhsil müəssisələrinin tələbələrinə və startap komandalarına qədər geniş iştirak imkanı mövcuddur.

Ahmet Köse Azərbaycan gənclərinin, o cümlədən BDU tələbələrinin TEKNOFEST-də əldə etdikləri uğurları xüsusi vurğulayıb.

Qeyd edək ki, "TEKNOFEST-2026" bu il Türkiyə Respublikasının Şanlıurfa şəhərində 30 sentaybr - 4 oktyabr tarixlərində keçiriləcək.

# BDU-da Çin Yaz Festivalı keçirilib

***Fevralın 5-də BDU-nun nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun təşkilatçılığı ilə Çin Yaz Festivalı təşkil olunub.***

Tədbirdə BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov, Çinin Azərbaycandakı müvəqqəti işlər vəkili Ding Tao, Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan, BDU-nun nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun direktoru Vanq Haoqiang və digər qonaqlar iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan BDU-nun prorektoru Şahin Pənahov Çin Xalq Respublikası ilə Azərbaycan arasında son illərdə daha da möhkəmlənən ikitərəfli münasibətlərdən, xüsusilə də BDU ilə Çin ali təhsil müəssisələri arasında mövcud olan əməkdaşlıq əlaqələrindən bəhs edib. Prorektor Universitetdə təhsil alan çinli tələbələrin sayı və təhsil göstəriciləri barədə də iştirakçılara ətraflı məlumat verib.

Çinin Azərbaycandakı müvəqqəti işlər vəkili Ding Tao Çin Yaz Festivalının Çin xalqının ən mühüm milli bayramlarından biri olduğunu vurğulayıb. Bu bayramın Çin mədəniyyətinin əsas və ayrılmaz komponentlərindən hesab edildiyini bildirib. O, tədbirin yüksək səviyyədə təşkili üçün BDU rəhbərliyinə və Konfutsi İnstitutuna minnətdarlığını bildirib.

Tədbir Konfutsi İnstitutunun və BDU-nun Şərqşünaslıq fakültəsinin müəllim və tələbələrinin fəal iştirakı ilə hazırlanmış rəngarəng bədii proqramla davam edib. Festival çərçivəsində Çin milli musiqi və rəqs nümunələri təqdim olunub, eləcə də iştirakçılar üçün şans lotoreyası təşkil edilib.

# BDU Tərtərdəki bir sıra ümumtəhsil müəssisələrinin kitabxanalarına kitablar hədiyyə edib

***Fevralın 14-də Tərtər Rayon İcra Hakimiyyəti, BDU-nun Elmi Kitabxanası və "BDU könüllüləri" təşkilatının birgə təşəbbüsü ilə 14 fevral - Beynəlxalq Kitab Bağışlama Günü münasibətilə Tərtər rayon Heydər Əliyev Mərkəzinə, eləcə də şəhər 1, 2, 5, 6 nömrəli və Xoruzlu, Bəyimsarov, Azad Qaraqoyunlu kənd tam orta ümumtəhsil məktəblərinə 213 nüsxə ədəbiyyat hədiyyə edilib.***



Hədiyyə olunan kitablar içərisində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri, şifahi xalq ədəbiyyatına, elmin müxtəlif qollarına aid kitablar yer alıb.

Kitabların təqdimedilməsi mərasimində çıxış edən "BDU könüllüləri" təşkilatının Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi üzrə üzvü Nərgiz Məmmədzadə bu günün mütaliəyə maraq və kitaba sevgi yaratmaq istəyən bütün insanları vahid məqsəd ətrafında birləşdirdiyini və hər il minlərlə yeni və oxunmuş kitabın uşaqlara hədiyyə edildiyini deyib. Bildirib ki, BDU tərəfindən ənənəyə çevrilən bu aksiya çərçivəsində ölkəmizin müxtəlif bölgələrindəki ümumtəhsil və ali təhsil müəssisələrinə kitablar hədiyyə edilir. Bu ənənə hər kəsin intellektual inkişafını stimullaşdırmaqla yanaşı, cəmiyyətdə paylaşmaq və hədiyyə etmək hissini də formalaşdırır.

# 400 BDU könüllüsü "Justice for Khojaly 613" fləşmobunda iştirak edib

***Fevralın 27-də Azərbaycan könüllülərinin iştirakı ilə "Justice for Khojaly 613" fləşmobu keçirilib.***

Fləşmobda "BDU könüllüləri" təşkilatının 400 üzvü iştirak edib. İştirakçılar Xocalı faciəsi zamanı qətlə yetirilmiş 613 günahsız insanın xatirəsini simvolizə edən kompozisiya formalaşdıraraq "Justice for Khojaly" çağırışını ictimaiyyətə çatdırıblar.

Qeyd edək ki, fləşmob Gənclər Fondu, Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı və Daxili İşlər Nazirliyi, Dənizkənarı Bulvar İdarəsi, "Azərçay"ın dəstəyi ilə həyata keçirilib.



# BDU-nun Psixoloji yardım sektorunun "Oxu klubu"nda tələbələrlə növbəti görüş

***Fevralın 24-də Bakı Dövlət Universitetinin Psixoloji yardım sektorunun nəzdində fəaliyyət göstərən "Oxu klubu"nda tələbələrlə növbəti görüş keçirilib.***

Klub üzvləri Pulitzer və Nobel mükafatı laureatı, amerikalı məşhur yazıçı Con Steynbekin dostluq və fədakarlıq mövzularında dünya ədəbiyyatının incilərindən sayılan "Siçanlar və adamlar" əsərini təhlil ediblər. Klubun rəhbəri, psixoloq İlkanə Mənsumova iştirakçılarla əsərin əsas mövzusu ətrafında sosial-psixoloji müzakirələr aparıb. Əsərdə müəllifin işıqlandırdığı tənhalıq problemi, ümid və mərhəmətin sərhədləri, obrazların xarakterləri təhlil edilib.

Tələbələrin maariflənməsi və şəxsi inkişaf səviyyəsinin artırılması məqsədilə növbəti görüş üçün tapşırıq verilib.

# BDU-da süni intellekt və rəqəmsal texnologiyaların kimyada tətbiqi müzakirə olunub

***Fevralın 27-də Kimya fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə 27 mart - Azərbaycan Respublikasında "Elm Günü"nə həsr olunmuş "Süni intellekt və rəqəmsal texnologiyaların kimyada tətbiqi" mövzusunda elmi seminar keçirilib.***

Kimya fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Taleh Qəhrəmanov kimyəvi proseslərin optimallaşdırılması, məlumatların analizi və innovativ həllərin hazırlanmasında süni intellektin imkanların böyük rol oynadığını deyib.

Seminarda SOCAR-ın törəmə müəssisəsi olan "SOCAR Downstream Management" şirkətinin nümayəndəsi Aynur Zeynalova müasir dövrdə süni intellekt alətlərinin kimya sahəsində rolu, rəqəmsal texnologiyaların elmi-tədqiqat prosesinə inteqrasiyası və sənaye tətbiqləri barədə ətraflı məlumat verib. Aynur Zeynalova çıxışında süni intellektin kimya sahəsində əsas inqilabi təsirinin məlumatların sürətli emalı, proseslərin modelləşdirilməsi və optimallaşdırılması ilə bağlı olduğunu qeyd edib. Süni intellekt əsaslı modellər ənənəvi üsullarla müqayisədə vaxt və resurslara qənaət edir, lakin etibarlı nəticələr üçün keyfiyyətli məlumat və mütəxəssis nəzarəti vacibdir.

O, süni intellektin yeni molekulların dizaynı, "ağıllı laboratoriyalar", hesablama kimyası, sənayedə proses optimallaşdırılması, yaşıl və dayanıqlı istehsal, eləcə də neft-kimya və əczaçılıq sahələrində tətbiqindən bəhs edib. Bildirib ki, süni intellekt kimyaçıları əvəz etmir, onların fəaliyyətini tamamlayır. Gələcəkdə laboratoriyalar daha avtomatlaşdırılmış və rəqəmsallaşmış olacaq, bu baxımdan gənc tədqiqatçılar rəqəmsal bacarıqlarını inkişaf etdirməlidirlər.

Seminar mövzu ətrafında müzakirələrlə davam edib.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 27.02.2026

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08